21 dekabr 2018 №93 (1583) www.medeniyyet.az

MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Yubiley ili bitir, yubilyar əbədi bizimlədir

## Rusiyalı məşhur musiqiçilər Qara Qarayevin əsərlərini Bakıda ifa etdilər

Dekabrın 19-da Beynəlxalq Muğam Mərkəzində Azərbaycanın dahi bəstəkarı, SSRİ Xalq artisti, akademik, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Qara Qarayevin 100 illik yubileyinə həsr olunmuş yekun konsert təqdim olundu.

Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə keçirilən yubiley tədbirləri bu ilin əvvəlindən etibarən təkcə Azərbaycanı əhatə etmədi, bir il ərzində yaxın-uzaq xaricdə dünya şöhrətli bəstəkarın əsərlərindən ibarət konsertlər keçirildi, onun yaradıcılığına həsr olunmuş elmi konfranslar baş tutdu, sənədli film lentə alındı.

Beynəlxalq Muğam Mərkəzində keçirilən kamera musiqisindən ibarət konsert, gənc olmasına baxmayaraq, kifayət qədər tanınan pianoçu, beynəlxalq müsabiqələr laureatı rusiyalı Olqa Domnina-nın çıxışı ilə başladı.

Repertuarında daha çox XX əsr bəstəkarlarının fortepiano üçün bəstələdikləri əsərlərə üstünlük verən ifaçı yubilyarın "Fortepiano üçün 24 prelüd" silsiləsindən 2-ci dəftərə daxil olan prelüdləri səsləndirdi. Bu ilin əvvəlində Moskva Dövlət Konservatoriyasında keçirilmiş konsertdə Qara Qarayevin bu silsilədən 4-cü dəftərə daxil olan prelüdlərini ifa etmiş Olqa Domnina jurnalistlərə müsahibəsində demişdi ki, "24 prelüd" silsiləsindən digər dəftərləri də öyrənmək niyyətindədir: "Qara Qarayevin musiqisində Avropa məktəbi ilə Şərq motivlərinin, Şərq ədviyyatının, Şərq mülayimliyinin qovuşuğu var. Klassik musiqinin Avropa yox, digər folklor əsasında arzuladığım bu cür fərqli səslənişini məhz Qara Qarayevin əsərlərində tapmışam".

Salonun nəfəs dərmədən dinləyib alqışladığı Olqa Domnina bir də səhnəyə qayıtdı, lakin bu dəfə "Violin və fortepiano üçün sonata"nı digər beynəlxalq müsabiqələr laureatı, həmyerlisi Stanislav Malışev ilə birlikdə ifa etmək üçün.

davamı səh. 2-də



## "2019-cu ildə bir çox ölkələrdə Nəsimi ilə bağlı tədbirlərimiz olacaq"

TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 36-cı iclasında qəbul olunan qərarlar Türk dünyası üçün tarixi əhəmiyyət daşıyır. Bu barədə TÜRKSOY-un baş katibi, professor Düsen Kaseinov jurnalistlərə açıqlamasında deyib.

Baş katib qeyd edib ki, Qırğızıstanın Oş şəhərinin "2019-cu ildə Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi, eləcə də iclasın qərarı ilə 2019-cu ilin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyi və Türkiyənin görkəmli el sənətkarı Aşıq Veysəlin 125 illiyi münasibətilə xatirə ili elan olunması türk tarixinin, mədəniyyətinin və ədəbiyyatının dünyaya tanıdılması, gənc nəsillərimizə ötürülməsi istiqamətində mühüm bir addımdır.

TÜRKSOY-un "mədəniyyət paytaxtı" və "tarixi şəxsiyyətlərin tanınması" layihələrinin vurğulayan baş katib gələn il dünyanın bir çox ölkələrində Nəsimi ilə bağlı tədbirlərin təşkil olunacağını diqqətə çatdırıb.

## "Kəlağayı: dünən, bu gün, sabah" adlı sərgi açılıb

Dekabrın 20-də İçərişəhərdə yerləşən "Kiçik QalArt" qalereyasında "Milli irsimiz" layihəsinin kuratoru Əsli Səmədovanın təşəbbüsü ilə "Kəlağayı: dünən, bu gün, sabah" adlı sərgi açılıb.

Tədbirdə bildirilib ki, sərgi özündə Azərbaycan və xarici muzeylərdən, şəxsi kolleksiyalardan olan nadir materialları, muzey təcrübəsi sahəsində innovasiyaları birləşdirir. Sərgidə ölkənin ən ucqar bölgələrindən toplanmış eksponatlar qismində, gənc kolleksiyaçılar Ruslan Hüseynov və Fuad Cəbrayılov tərəfindən qədim kəlağayılar təqdim edilir.

Qeyd edilib ki, ziyarətçilər ilk dəfə olaraq Gürcüstanın muzeylərindən təqdim edilmiş arxiv fotolarına tamaşa etməklə yanaşı, həmçinin oyunlar oynayaraq Çinarə Məcidovanın müəllifi olduğu videomaterial vasitəsilə müxtəlif kəlağayıları öyrənə biləcək və həftə seminara yazılmaqla özünün mini kəlağayısını hazırlamaq imkanı əldə edəcəklər.



Sərginin məsləhətçisi psixologiya üzrə fəlsəfə doktoru Rəna İbrahimbəyovadır. Basqaldakı Kəlağayı muzeyindən sərgiyə kəlağayılar və nadir qəliblər (ştamplar) gətirilib. Qəlib kolleksiyası Milli Azərbaycan Tarixi Muzeyindən təqdim edilmiş materiallarla tamamlanır.

Sərgiyə dair materiallar Azərbaycan, rus və ingilis dillərində hazırlanıb. Qeyd edək ki, ekspozisiya ziyarətçilər üçün gələn il mayın 15-dək açıq olacaq.

## "Mənim o ağ çiçəklərim, dönüb qara torpaq oldu..."

Nurəngiz Gün torpağını, millətini sevən ziyalı idi. Ürəyindəki yanğı, ağrı-acı, Vətən təəssübkeşliyi onun bütün şeirlərinə nüfuz edirdi.

Müəllifin şeirlərindəki bu ağrı Qarabağ dərdi, işğal altındakı torpaqlarımızın həsrətidir. Bu həsrət onu yatmağa da qoymur, yuxusunu ərşə çəkir, qəlbini göyüm-göyüm göynədirdi...

Bu fikirlər dekabrın 19-da Azərbaycan Dövlət Musiqili Teatrında tanınmış şair Nurəngiz Günün (1938-2014) 80 illik yubileyinə həsr olunmuş tədbirdə səsləndi.




Gecədə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, dövlət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, sənətkarın ailə üzvləri və ədəbi ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Rafael Hüseynov tədbirdə çıxış edərək şairin yaradıcılığından, şeirlərinin özünəməxsusluğundan danışdı.

davamı səh. 4-də



## "Doğma diyar" rəsm müsabiqəsinin yekun sərgisi

Müsabiqəyə 700-ə yaxın uşaq 1800-ə qədər rəsmini təqdim edib. Münsiflər heyətinin qərarı ilə 12 yaşa qədər 165 uşağın 170 işi və 12-17 yaş arası 135 uşağın 140 işi sərgiyə çıxarılıb.

səh. 3

## Ensiklopedik zəka sahibi

Klassik sənətkarların bədii irsinin qorunub saxlanılmasında təzkirə müəlliflərinin böyük rolu olub.

Orta əsrlərdə Məhəmməd Ovfi, Dövlətşah Səmərqəndi, Əmir Əhməd Razi, Lütəli bəy Azər, Sam Mirzə, sonrakı dövrlərdə Rzaqulu xan Hidayət, Hüseyn əfəndi Qayıbov, Seyid Əzim Şirvani, Məhəmməd ağa Müctəhidzadə, Məhəmmədəli Tərbiyət və başqaları ağır zəhmətə qatlaşaraq sələflərinin və müasirlərinin əsərlərini toplayıb özlərindən sonrakı nəsillərə çatdırıblar.

Bu əhəmiyyətli işi XIX əsrin sonlarında uğurla davam etdirən görkəmli ziyalılardan biri də Mir Möhsün Nəvvabdır.

Azərbaycan mədəniyyəti tarixində şair, xəttat, rəssam, musiqişünas, astronom kimi məşhur olan bu ensiklopedik zəka sahibi həm də böyük filoloq – söz sərrafı idi. XIX əsrin 70-ci illərində Şuşada fəaliyyətə başlayan "Məclisi-fəramuşan" ("Unudulmuşların məclisi") ədəbi məclisinə başçılıq edən Nəvvab eyni zamanda Qarabağ şairlərinin əsərlərini toplayaraq sanballı bir kitab – təzkirə hazırlayıb.

davamı səh. 6-da

## Yeni il gəlir... Uşaqları hansı teatra aparaq?

Anarın "Ötən ilin son gecəsi" pyesində bir məqam var. Yeni ilə iki-üç saat qalmış poçtalyon Həmidə xanımın qapısını döyüb təbrik teleqramını ona çatdırır. Həmidə xanımın cavanyana Yeni ili qarşılama həvəsi ömrünün ahıl çağını yaşayan poçtalyona qəribə gəlir. Qadına irad tutur ki, Yeni il "stilyaqa" cavanlar üçündür ki, səhərədək atılıb-düşsünlər.

Poçtalyonun tərifini verdiyi Yeni il şənliklərinə münasibət indi bir qədər fərqlidir. Məsələn, daha kimsə öz mənzilinə qohumları, dostları yığıb səhərədək qonşuları, yaxud evdəki uşaqları və qocaları narahat etmir. Sadəcə, hansısa əyləncə mərkəzində, yaxud istirahət məkanında özü kimi hay-küylü məclis quranlara qoşulub Yeni ili qarşılayır. Onlarla işimiz yox, bizim sözümüz "işdən yorğun gəlmişəm" bəhanəsi bayram tətilində kəsildiyindən ailəsi ilə birlikdə mədəni istirahət etməyə macal tapan, övladlarına klassik tətil yaşatmaq üçün teatrların qış tətili repertuarı ilə maraqlanan oxucularımızadır.

davamı səh. 7-də

Görkəmli fırça ustasının yubiley sərgisi davam edir



səh. 5

Əfsanəvi partizan Mehdi Hüseynzadənin 100 illiyinə həsr olunan tədbir və kitab təqdimatı keçirilib

səh. 2



Puççininin məşhur operası Bakı səhnəsində

səh. 2

№93 (1583)
21 dekabr 2018
www.medeniyyet.az

# Tarixi əlaqələrin inkişaf etdirilməsi ümumi maraqlara xidmət edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Dövlətimizin başçısı Sergey Morozovun bu vəzifəyə təyin olunmasından keçən qısa bir müddət ərzində Azərbaycana səfər etməsindən məmnunluğunu bildirib və bunu uğurlu əməkdaşlığın təzahürü kimi dəyərləndirib.

Prezident Azərbaycanla Həştərxan arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, bu gün əməkdaşlığın genişləndiyini və birgə layihələrin həyata keçirildiyini vurğulayıb və bütün bunların Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini deyib. Həştərxanda Azərbaycan İşgüzar Mərkəzinin fəaliyyət göstərdiyini, Bakıda da Həştərxan İşgüzar Mərkəzinin inşasının başlandığını qeyd edən dövlətimizin başçısı təhsil, mədəniyyət sahələrində əməkdaşlığın yaxşı səviyyəsindən məmnunluğunu ifadə edib, həmçinin turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirib.

Prezident Həştərxan vilayəti ilə əməkdaşlığın Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini bir daha diqqətə çatdıraraq ikitərəfli əlaqələrin genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif beynəlxalq səviyyədə təmaslarının rolunu xüsusi olaraq qeyd edib.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Rusiya Prezidenti Vladimir Putinin Xəzəryanı ölkələrlə əməkdaşlığın genişləndirilməsi barədə tapşırıqlar verdiyini qeyd edərək ilk səfərini Azərbaycana həyata keçirdiyini məmnunluqla vurğulayıb.

Görüşdə Sergey Morozov Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın inkişafına və dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi böyük töhfəyə görə Prezident İlham Əliyevə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordenini təqdim edib.

Sonda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, Həştərxan vilayəti rəhbərinin Bakıya səfərinin yekunları ilə bağlı dekabrın 20-də vilayətin xarici və xarici iqtisadi əlaqələr naziri vəzifəsini icra edən Denis Afanasyev brifinq keçirib. O, əldə edilən razılaşmalardan danışaraq 2019-cu ilin yazından Bakı-Həştərxan marşrutu üzrə aviareyslərin bərpa olunmasının, həmçinin gələn ilin sonunadək Bakıda Həştərxan İşgüzar Mərkəzinin açılışının nəzərdə tutulduğunu deyib. Həştərxan Vilayəti Hökumətinin rəsmi portalında həmçinin Azərbaycan Prezidenti ilə görüşdə humanitar və mədəni əlaqələrin inkişaf etdirilməsi, 2019-cu il üzrə hazırlanacaq birgə tədbirlər proqramında yaradıcı kollektivlərin qarşılıqlı qastrolları, jurnalistlərin və turoperatorların qarşılıqlı səfərləri, Azərbaycan nümayəndə heyətinin 2019-cu ildə Həştərxanda keçiriləcək 5-ci Xəzər Media Forumunda iştirakı və başqa məsələlərin əks olunacağı bildirilir.

## Qoruq ərazilərində tarixi-mədəni irsin öyrənilməsi, təbliği və istifadəsi ilə xüsusi qurum məşğul olacaq

Qoruqların ərazisində mədəni irsin qorunmasını və saxlanılmasını, onların turizm potensialından səmərəli istifadəni təmin etmək, həmçinin dövlət-özəl tərəfdaşlığına şərait yaratmaq, qoruqların dövlət büdcəsindən asılılığını azaltmaq və dayanıqlı inkişafına nail olmaq üçün bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsinə və vahid idarəetmə sisteminin tətbiqinə zərurət yaranmışdır. Bu barədə Azərbaycan Respublikası Prezidentinin dekabrın 20-də imzaladığı Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin yaradılması haqqında fərmanda qeyd olunur.

Sənəddə bildirilir ki, dövlət qoruqları Azərbaycanın tarixi-mədəni irsinin nadir nümunələrindəndir, bu irsi qoruyub gələcək nəsillərə çatdırmaq olduqca böyük əhəmiyyət kəsb edir.

Fərmana əsasən, Qoruqlar İdarəetmə Mərkəzi Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqların ərazilərində yerləşən tarixi, maddi və qeyri-maddi mədəni irsə aid elementlərin, abidələrin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsinin, təbliğinin, qorunub saxlanmasının, inkişafının və onlardan məqsədyönlü istifadənin təmin edilməsi, qoruqların turizm potensialının artırılması sahəsində publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək.

## Yubiley ili bitir, yubilyar əbədi bizimlədir

*əvvəli səh. 1-də*

Konsertin proqramı tərtib edilərkən rəngarənglik nəzərə alınmışdı. Gənc bariton, beynəlxalq müsabiqələr laureatı Mahir Tağızadə Qara Qarayevin Lenqston Hyuzun sözlərinə bəstələdiyi, uzun illər ifa edilməmiş bariton, fortepiano və violin üçün üç nokturnünü Olqa və Stanislavla birlikdə ifa etdi.



Dinləyiciləri daha bir sürpriz gözləyirdi. Qara Qarayevin "Yeddi gözəl"inə vurğun olan Olqa Domninanın xahişi ilə müasir rus bəstəkarı Vladimir Genin baletin musiqisini solo fortepiano üçün transkripsiya edib. Bu əsərin dünya premyerası ötən illərdə Bakıda səslənsə də, ifa hüququ Olqa Domninada olan "musiqi təbdil"ini yalnız onun ifasında dinləməyə ixtiyarımız var. Bununla belə, pianoçu xanım bu əsəri daim öz konsertlərində final çıxışı olaraq ifa edir.

Beləliklə, Qara Qarayevin 100 illik yubileyi ilə bağlı tədbirlər, musiqi axşamları başa çatır. Əgər XX əsr dünya musiqisinin dahilərindən sayılan Azərbaycan bəstəkarının əsərləri gənc ifaçıları da ilhamlandırırsa, deməli, onun əsərləri təkcə yubiley münasibətilə deyil, həmişə səslənəcək və musiqi xiridarlarının zövqünü oxşayacaq.

**G.MİRMƏMMƏD**

## Sovet İttifaqı Qəhrəmanlarına həsr olunur

Milli Kitabxanada Azərbaycan şərqşünaslıq elminin korifeylərindən biri, tarixçi, Sovet İttifaqı Qəhrəmanı, Əməkdar elm xadimi, akademik Ziya Bünyadovun anadan olmasının 95 illiyi münasibətilə kitab sərgisi açılıb. Sərgidə akademikin Azərbaycan, rus və digər dillərdə nəşr olunmuş əsərləri, redaktoru, tərtibçisi olduğu, rəy verdiyi və haqqında yazılan kitablar nümayiş olunub.

Eyni zamanda, Milli Kitabxanada Azərbaycan xalqının qəhrəman oğlu, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi münasibətilə kitab sərgisi təşkil edilib. Sərgidə Azərbaycan, rus və digər dillərdə Mehdi Hüseynzadə haqqında yazılmış kitablar, dövri mətbuat materialları nümayiş olunur.

## “Şərəfli ömrün anları”

### Əfsanəvi partizanın 100 illiyinə həsr olunan tədbir və kitab təqdimatı

Dekabrın 20-də Azərbaycan İstiqlal Muzeyində Sovet İttifaqı Qəhrəmanı məşhur partizan Mehdi Hüseynzadənin (1918-1944) 100 illik yubileyinə həsr olunan "Şərəfli ömrün anları" adlı tədbir keçirildi.






Muzeyin direktoru Fəridə Şəmsi çıxış edərək Prezident İlham Əliyevin Mehdi Hüseynzadənin 100 illiyi haqqında sərəncam imzaladığını diqqətə çatdırdı, il ərzində yubileylə bağlı müxtəlif tədbirlərin keçirildiyini dedi. Azərbaycanın cəsur oğlunun qəhrəmanlıqlarla dolu həyatından danışan direktor qeyd etdi ki, Mehdi Hüseynzadə Böyük Vətən müharibəsi (1941-1945) zamanı əsir götürülüb, sonradan əsirlikdən qaçaraq antifaşist Müqavimət hərəkatına qoşulub, Yuqoslaviya, İtaliya partizan dəstələri ilə birgə döyüşüb. Əfsanəvi partizan "Mixaylo" çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirib, misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanaraq Azərbaycan xalqının tarixi hünər salnaməsinə şanlı səhifələr yazıb.

Tədbirdə həmçinin Sloveniya yazıçısı Peter Amaliettinin Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən dilimizə tərcümə edilmiş "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" kitabının təqdimatı keçirildi. Kitab 2013-cü ildə Mədəniyyət Nazirliyinin dəstəyi ilə rus dilində işıq üzü görüb. Bu il Azərbaycan Dövlət Tərcümə Mərkəzinin təşəbbüsü ilə Azərbaycan dilinə çevrilib.

Azərbaycan Dövlət Tərcümə Mərkəzi Aparatının rəhbəri Yaşar Əliyev çıxış edərək kitabın əhəmiyyətindən danışdı. Qeyd etdi ki, bədnam qonşularımız zaman-zaman tarixi torpaqlarımızı işğal etdikləri kimi, qəhrəmanlarımıza da böhtan atıb, onların igidliyini danıblar. Təqdim olunan kitabda müəllif Peter Amalietti Mehdi Hüseynzadənin qəhrəmanlığını dolğun şəkildə təsvir edib.

Kitabın tərcüməçisi Fərhad Abdullayev, AMEA Fəlsəfə İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru İlham Abbasov, İtaliya faşizmə qarşı Müqavimət hərəkatının iştirakçısı olmuş Əli Babayevin oğlu Baba Babayev, Nəsimi rayonu Mehdi Hüseynzadə adına 19 nömrəli tam orta məktəbin direktoru Akif Əliyev çıxış edərək kitabla bağlı fikirlərini bölüşdülər.

Mehdi Hüseynzadənin bacısı oğlu Mehdi Əzizbəyov tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirdi.

Çıxışlardan sonra qonaqlar Mehdi Hüseynzadənin yubileyinə həsr olunmuş "Şərəfli ömrün anları" adlı sərgi ilə tanış oldular. Nümayiş olunan 100-dən çox foto və sənəd Mehdi Əzizbəyov tərəfindən muzeyə təhvil verilib.

**Savalan FƏRƏCOV**

## Özbəkistana şöhrət gətirən soydaşımız

### Maqsud Şeyxzadənin 110 illiyi qeyd edilib

Dekabrın 20-də Beynəlxalq Mətbuat Mərkəzində özbək ədəbiyyatının klassiki, şair, dramaturq, tərcüməçi, soydaşımız Maqsud Şeyxzadənin anadan olmasının 110 illik yubileyinə həsr olunan tədbir keçirilib.



Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM), Azərbaycan "Kaspi" qəzeti və eyniadlı Təhsil Şirkətinin və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə reallaşan tədbirdə ssenari müəllifi və rejissoru Özbəkistanda yaşayan soydaşımız Eldar Məmmədov olan "İki xalqın iftixarı" adlı sənədli film nümayiş etdirilib.

Maqsud Şeyxzadənin yaradıcılığı, onun özbək ədəbiyyatına verdiyi töhfələrdən danışan natiqlər ədibin özbək xalqının qəhrəmanı Cəlaləddin Manquberdi, hökmdar Mirzə Uluqbəy kimi tarixi şəxsiyyətlərlə bağlı yaratdığı əsərlərlə özbək dramaturgiyasının əsasını qoyduğunu bildiriblər. Özbək ədəbiyyatının "Şekspiri" adlandırılan Maqsud Şeyxzadənin qardaş xalqın ədəbiyyatının və ədəbiyyatşünaslığının inkişafında əvəzsiz xidmətləri vurğulanıb. Ədibin bədii tərcümə işinin də yüksək bilicisi olduğunu deyən çıxışçılar onun Avropa və dünya klassiklərinin, eləcə də Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərlərini özbək dilinə tərcümə etdiyini qeyd ediblər.

Çıxışlardan sonra bir qrup şəxsə hər iki xalqın ədəbiyyatına verdiyi töhfələrə görə Mətbuat Şurasının diplomları təqdim edilib.

## Məşhur opera Bakı səhnəsində

### Opera və Balet Teatrında “Manon Lesko”nun premyerası olacaq

Dekabrın 22-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Cakomo Puççininin "Manon Lesko" opera tamaşasının premyerası olacaq.

Səhnə əsərində baş rolda (Manon Lesko) Əməkdar artist, "Humay" mükafatı laureatı Afaq Abbasova səhnəyə çıxacaq. Lesko partiyasını ifa etmək üçün Ukrayna Milli Operasının solisti, bu ölkənin Əməkdar artisti, beynəlxalq müsabiqələr laureatı Pyotr Primak dəvət olunub.



Digər rollarda Xalq artisti Əkrəm Poladov (Jeront de Ravuar), əməkdar artistlər Fərid Əliyev (Kavaler Qrie), Tural Ağasıyev (Edmond) və solist Fəhmin Əhmədli çıxış edəcəklər. Tamaşanın musiqi rəhbəri və dirijoru Əməkdar artist Əyyub Quliyev, quruluşçu rejissoru Ukraynanın Əməkdar incəsənət xadimi Mikola Tretyak, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, konsertmeysteri Aysel Məlikovadır.

Baş qəhrəmanı canlandıran Afaq Abbasova bizimlə söhbətində bu operanın Azərbaycanda ilk dəfə olaraq tamaşa şəklində səhnələşdirildiyini bildirdi: "Üç il əvvəl biz əsəri Opera və Balet Teatrında Üzeyir Hacıbəyli VII Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim etdik. Bu dəfə isə opera-tamaşa kimi hazırlamışıq. Uzun müddətdir gərgin məşqlər gedir. Tamaşada teatrımızın aparıcı heyəti və böyük tərkibdə xor kollektivi çıxış edəcək. C.Puççininin ən çətin dram operalarından birində səhnəyə çıxmaq böyük məsuliyyət tələb edir. Bu tamaşa bütün dünyada opera sənətində öz sözünü demiş soprano və tenorlar tərəfindən ifa olunur. Gənc bir xanımın həyat dramından bəhs edən əsərin partiyaları heç də asan deyil. Sənətsevərləri 22 dekabrda keçiriləcək premyeraya dəvət edirik".

Qeyd edək ki, "Manon Lesko" Cakomo Puççini yaradıcılığında xüsusi yeri olan əsərlərdən biridir. Operanın librettosu Antuan Fransua Prevonun Avropada çox populyar olan "Kavaler de Qrie və Manon Leskonun sevgi tarixçəsi" romanının motivləri əsasında yazılıb. Tamaşanın premyerası 1893-cü ildə İtaliyanın Turin şəhərində olub. İnanırıq ki, Bakı səhnəsində ilk tamaşa opera və ifaçılıq sənəti tariximizdə yaddaqalan hadisələrdən birinə çevriləcək.

**Lalə AZƏRİ**

# Sərhədləri aşan sənət şöhrəti

## Dahi bəstəkar Qara Qarayev haqqında sənədli film təqdim olundu








Dekabrın 19-da Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin sifarişi ilə Rusiyanın "DİVİ" telekompaniyası tərəfindən çəkilmiş "Qara Qarayev. Yol" sənədli filminin təqdimatı keçirildi.

Filmin nümayişindən öncə dahi bəstəkarın yubileyi çərçivəsində keçirilən tədbirlər haqqında qısa məlumat verildi. Bildirildi ki, Qara Qarayevin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı dövlət başçısının sərəncamına əsasən, Azərbaycanla yanaşı, Fransa, ABŞ, Almaniya, Polşa, Gürcüstan, Rusiya, Macarıstan, Qazaxıstan, Ukrayna və s. ölkələrdə müxtəlif səpkili tədbirlər təşkil olunub. Həmçinin TÜRKSOY təşkilatı tərəfindən 2018-ci il "Qara Qarayev ili" elan edilib və bu qurum səviyyəsində yubiley tədbiri keçirilib. Bəstəkarın 100 illiyi UNESCO-nun yubileylər proqramına salınıb və may ayında təşkilatın Parisdəki iqamətgahında keçirilən gecə isə dünya şöhrətli bəstəkarın təkcə Azərbaycana deyil, bütün bəşəriyyətə bəxş etdiyi misilsiz musiqi əsərləri ilə əbədiyaşar olduğunu bir daha sübut edib.

Daha sonra "Qara Qarayev. Yol" sənədli filmi haqqında söz açıldı, yaradıcı heyət səhnəyə dəvət edildi. Ekran işinin ssenari müəllifi Nina Smirnova, operatoru Dmitri Novoselov, icraçı prodüseri Dmitri Dulov, maliyyə direktoru Vera İlyena çəkilişlərlə bağlı təəssüratlarını bölüşdülər.

Qeyd olundu ki, filmin ilk nümayişi bu ilin noyabr ayında Rusiyanın "Kultura" ("Mədəniyyət") kanalında reallaşıb. Filmdə bəstəkar haqqında bu günə kimi lentə alınan sənədli ekran nümunələrindən, həmçinin Azərbaycanın Xalq artisti, rejissor Oqtay Mirasımovun 1968-ci ildə lentə aldığı "Bu, həqiqətin səsidir" filmindən istifadə edilib. Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdirləri Cahangir Məmmədov və İsmayıl Hüseynov çəkiliş prosesinə yaxından köməklik göstərib.

Məşhur bəstəkardan bəhs edən filmi musiqi ictimaiyyətinə təqdim etməyin böyük məsuliyyət olduğunu deyən yaradıcı heyət bu işi Qara Qarayev dühası qarşısında kiçik bir xidmət kimi səciyyələndirdi.

Sonra film nümayiş olundu. Sənədli ekran əsəri böyük bəstəkarın həyat və yaradıcılığını mərhələ-mərhələ tamaşaçıya təqdim edir. Burada musiqiçinin xatirələri, həmçinin tələbələri, həmkarları və qohumlarının müsahibələri yer alıb. Anası Sona xanım Axundova, oğlu, bəstəkar, Azərbaycanın Xalq artisti, professor Fərəc Qarayev, qızı, pianoçu Züleyxa Qarayeva-Bağırova, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı Tahir Salahov, həmçinin vaxtilə bəstəkarla birlikdə çalışmış Rusiyanın görkəmli sənət adamlarının unudulmaz xatirələri sənətkarın əzəmətli portretini bütövləşdirir. Bəstəkarın uşaqlıq və gənclik illərinin yaddaqalan anları da filmdə əks olunub.

Filmlə bağlı fikirlərini bizimlə bölüşən icraçı prodüser Dmitri Dulov dedi ki, Qara Qarayev bəşəri miqyaslı, yaradıcılıq fəaliyyəti bir coğrafi məkana sığmayan böyük sənətkardır, bu filmi çəkərkən bir çox şəhərlərdə işləməli olduq: "Bakıda yekunlaşan çəkilişlər bir daha sübut edirdi ki, dünya şöhrətli əsərlərin müəllifi olan Qara Qarayev qəlblərdə yaşayır, sevilir və bu, həmişə belə olacaq. Bizim üçün bu filmi işləmək çox xoş idi".

**Lalə AZƏRİ**

# Qadın şairlərimizin şeirləri italyan dilində



İtaliya Senatının kitabxanasında "Azərbaycanın qadın şairlərinin şeirləri: səkkiz əsrlik ədəbiyyat (1200-1991)" kitabının təqdimat mərasimi keçirilib. Tədbir Azərbaycanın İtaliyadakı səfirliyi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun və İtaliyanın "Sandro Teti" nəşriyyat evinin birgə təşkilatçılığı ilə reallaşıb.

Mərasimdə İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, deputat Rosanna Boldi ölkəmizin zəngin mədəniyyəti, ədəbiyyatı barədə danışaraq kitabın əhəmiyyətini vurğulayıb.

Ölkəmizin İtaliyadakı səfiri Məmməd Əhmədzadə Azərbaycan mədəniyyətinin İtaliyada daha yaxından tanıdılmasına xidmət edən bu tədbirin təşkilinə görə İtaliya Senatının rəhbərliyinə təşəkkürünü bildirib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Azərbaycan ədəbiyyatının zənginliyindən söhbət açıb, nəşr barədə məlumat verib. Azərbaycan ədəbi irsinə qadınların verdiyi töhfələr barədə danışan G.Əfəndiyeva xanım şairələrimizin bir çoxunun Azərbaycanın tarixi torpağı olan Qarabağda yaşayıb-yaratdığını söyləyib.

"Sandro Teti" nəşriyyat evinin rəhbəri Sandro Teti Azərbaycan haqqında kitablar, o cümlədən azərbaycanlı müəlliflərin italyan dilinə tərcümə edilmiş əsərləri barədə danışıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və "Sando Teti" nəşriyyat evinin birgə layihəsi olan nəşrin tərtibçiləri Günay Əfəndiyeva və Şəhla Nağıyevadır. Kitaba XIII-XX əsrlərdə yazıb-yaradan Azərbaycanın qadın şairlərinin şeirləri (Azərbaycan və italyan dillərində) daxil edilib.

Tədbirdə ssenari müəllifi Ülviyyə Heydərova, rejissoru isə Zəhra Quliyeva olan "Azərbaycan poeziyasında qadın ruhu" adlı sənədli film nümayiş olunub. Xalq artisti Mehriban Zəkinin ifasında kitabdakı bir sıra şeirlər bədii-musiqili kompozisiya formasında təqdim edilib. İştirakçılar Cəmilə Həşimovanın kitabda əks olunan illüstrasiyalarından ibarət sərgi ilə də tanış olublar.

# Bakı Kitab Mərkəzində "Tarixlə üz-üzə"

Ölkəmizin Polşadakı səfiri, tarix elmləri doktoru Həsən Həsənovun "Makedoniyalı İsgəndər və Atropat" kitabı Azərbaycan və rus dillərində çapdan çıxıb. Dekabrın 19-da Bakı Kitab Mərkəzində kitabların təqdimatı keçirilib.

Mərkəzin "Tarixlə üz-üzə" layihəsi çərçivəsində reallaşan təqdimatda çıxış edən Həsən Həsənov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən belə bir mədəniyyət və ədəbiyyat ocağının – Bakı Kitab Mərkəzinin yaradılmasını yüksək qiymətləndirib. Kitab barədə məlumat verən Həsən Həsənov qeyd edib ki, nəşrdə iki mövzudan – Azərbaycan adlı müstəqil dövlətin yaranmasından bəhs olunur. Azərbaycan dövlətinin ilk dəfə eramızdan əvvəl VII əsrdə yaradılmasının kitabda tarixi faktlarla sübut olunduğunu qeyd edən müəllif deyib: "Mən iki mötəbər mənbəyə – Suriyada "Karxi de Bet Selox" və IV əsr Roma tarixçisi Ammian Martsellinə istinad etmişəm. Birinci mənbədə Arbat tərəfindən Adorbayqan adlı dövlətin yaradılması, ikinci mənbədə isə Atropatena adlı dövlətin məhz Assuriya imperiyasının süquta uğraması nəticəsində yaradılması göstərilir. Sovet dövründə tarixçi Ammian Martsellinin əsərinin tərcüməsi zamanı məhz bu fikirlər ixtisara salınmışdı".



"Makedoniyalı İsgəndər və Atropat" kitabında qədim Azərbaycan dövləti olan Atropatenanın əslində eramızdan əvvəl IV əsrdə deyil, VII əsrdə yaranması diqqətə çatdırılır. İndiyə kimi tarix kitablarında Atropatena dövlətinin Makedoniyalı İsgəndərin ölümündən sonra onun imperiyasının parçalanması nəticəsində eramızdan əvvəl 321-ci ildə yarandığı bildirilir. Müəllif sübut edir ki, Atropatena dövləti Assuriya imperiyasının parçalanması nəticəsində eramızdan əvvəl 612-ci ildə yaranıb. Eramızdan əvvəl IV əsrdə isə Atropatena dövləti bərpa olunub.

Sonra Həsən Həsənov oxucuların suallarını cavablandırıb, müəllifi olduğu kitabı imzalayaraq onlara təqdim edib.

# Uşaq-gənclər xalq çalğı alətləri orkestrinin konsert proqramı

Uşaq Filarmoniyasının Uşaq-gənclər xalq çalğı alətləri orkestri Azərbaycan Dövlət Akademik Filarmoniyasında BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycan Hökuməti ilə tərəfdaşlığının 25 illiyinə həsr olunmuş tədbirin bədii hissəsində konsert proqramı ilə çıxış edib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan orkestr on ilə yaxındır ki, fəaliyyət göstərir. Orkestrin bədii rəhbəri və baş dirijoru Xalq artisti, professor Ağaverdi Paşayevdir.



Daim maraqlı konsert proqramları ilə çıxış edən orkestr bu dəfə də dinləyicilərin zövqünü oxşayıb. Solistlər – beynəlxalq və respublika müsabiqələri laureatları Murad Allahverdili (ksilofon), İsmayıl Əsədli (vokal), Ataxan Əliağayev (balaban), Lalə İbrahimova (vokal), Gülarə Ramazanova (kamança), Kamran Səmədov (zurna), Atlas Mehdiyeva (xanəndə), Zakir Allahverdili (qoboy), Əli Məmmədli (saz), Əlipaşa Şahgəldiyev (truba), Mirəli Əlizadə (tar), Nəzrin Cəfərzadə (kamança) və "Qala" ritm qrupu (solistlər Rəşad Quluzadə, Eldar Yarıyev, Nurlan Allahverdiyev və Qamət Əliyev) öz ifaları ilə tamaşaçıların rəğbətini qazanıb.

Sonda UNİCEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvadin orkestrin üzvlərinə gözəl musiqi axşamına görə öz minnətdarlığını bildirib və kollektivə təşəkkürnamə təqdim edib.

# Humboldt Universitetində ölkəmizlə bağlı kitabların təqdimatı

Berlin Humboldt Universiteti tərəfindən Azərbaycanla bağlı alman dilində çap edilmiş bir neçə kitabın təqdimatı keçirilib.

Tədbirdə "Azərbaycan Demokratik Respublikası sənədlərdə (1918-1920)", "Qarabağın müsəlman elitası tarixi təlatümlər və modernləşmə içərisində (1840-1950)", "Almanlar Cənubi Qafqazın multikulturoloji mühitində" və "Sərhədsizləşmə. Almanlar Vürttemberq ilə Qafqaz arasında vətən axtarışında" kitabları təqdim olunub. Kitablar Humboldt Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan tarixi kafedrasının əməkdaşları tərəfindən hazırlanıb.

Kafedranın müdiri, professor Eva-Maria Aux qeyd edib ki, yeni nəşrlər almandilli ölkələrdə Azərbaycanla bağlı məlumatların artmasına, o cümlədən Almaniya-Azərbaycan münasibətləri tarixinin mühüm səhifələrinin daha geniş işıqlandırılmasına xidmət edəcək.

Humboldt Universitetinin dosenti Rasim Mirzəyev Azərbaycan Xalq Cümhuriyyəti haqqında bir sıra tarixi bilgiləri iştirakçılarla bölüşüb.

Tədbirdə iştirak edən Xarici İşlər Nazirliyinin nəzdindəki Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin rəhbəri Seymur Fətəliyev maraqlı elmi nəşrlərə görə Humboldt Universitetinin əməkdaşlarına təşəkkürünü bildirib.

# "Doğma diyar" rəsm müsabiqəsinin yekun sərgisi

Dekabrın 19-da Xətai Sənət Mərkəzində "Azərbaycan Xalq Cümhuriyyəti ili" çərçivəsində "Doğma diyar" Respublika uşaq rəsm müsabiqəsinin yekun sərgisinin açılışı oldu.

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Televiziya və Radio Verilişləri QSC, Xətai Rayon İcra Hakimiyyəti, 3 nömrəli Uşaq gənclər inkişaf mərkəzinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən sərginin birinci günü 12 yaşa qədər uşaqların əl işləri təqdim olundu. Tədbirin ikinci günü (20 dekabr) isə bu məkanda 12-17 yaş arası uşaqların əl işləri sərgilənib.




Müsabiqəyə 700-ə yaxın uşaq 1800-ə qədər rəsmini təqdim edib. Münsiflər heyətinin qərarı ilə 12 yaşa qədər 165 uşağın 170 işi və 12-17 yaş arası 135 uşağın 140 işi sərgiyə çıxarılıb.

Tədbiri giriş sözü ilə Rəssamlıq Akademiyasının dosenti Samir Sadıqov açaraq müsabiqənin əhəmiyyətindən danışdı. Bildirdi ki, müsabiqənin keçirilməsində məqsəd uşaqlarda estetik zövqün formalaşdırılması, onlarda bədii yaradıcılığın stimullaşdırılması, ətraf mühitin mühafizəsi, milli adət-ənənələrin təbliği, vətənə məhəbbət hissinin aşılanması, istedadlı uşaq və gəncləri üzə çıxarmaqdır.

Xalq rəssamı Ağəli İbrahimov çıxışında müsabiqəyə təqdim edilən rəsmlərin əksəriyyətinə baxdığını dedi: "Üç yaşından 17 yaşadək uşaqların rəsmləri ilə tanış oldum. Uşaqlar xalqımızın folklorunu, tarixini həvəslə oxuyur və öyrənirlər. Bunu onların rəsmlərində də görmək mümkündür".

Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov, Xalq rəssamı Arif Hüseynov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev çıxış edərək müsabiqənin uşaqlarda sənətə maraq yaratmasından danışdılar. Bildirdilər ki, müsabiqə uşaqlarda milli folkloru, ədəbiyyatı və tarixi qəhrəmanlarımızı öyrənməyə maraq yaradır.

Çıxışlardan sonra uşaqlara diplom və sertifikatlar verildi.

Qeyd edək ki, hər iki sərgidən seçilən 20 əsər ilin sonunda Muzey Mərkəzində keçiriləcək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş yekun tədbirdə nümayiş olunacaq.

**Savalan FƏRƏCOV**

## Polad Bülbüloğlu yenidən MDB Humanitar Əməkdaşlıq Fonduna rəhbər seçilib

Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu növbəti dəfə yekdilliklə MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) İdarə Heyətinin sədri seçilib.

Dekabrın 18-də Moskvada MDB DHƏF İdarə Heyətinin, MDB Humanitar Əməkdaşlıq Şurasının (HƏŞ) və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının birgə iclası keçirilib. İclasda DHƏF İdarə Heyətinin həmsədri, Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Humanitar Əməkdaşlıq Şurasının sədri, Tacikistan Prezidentinin köməkçisi Əbducabor Rahmonzoda və MDB-nin rəhbər humanitar əməkdaşlıq orqanlarının digər üzvləri iştirak ediblər.



İclasda 2019-cu ildə DHƏF-in dəstəyi ilə həyata keçiriləcək dövlətlərarası layihələrin siyahısı təsdiq olunub. Fondun ənənəvi aksiyaları (Yaradıcı və elmi ziyalıların forumu, “Birliyin ulduzları” və “Debütlər birliyi” mükafatları, “Minsk təşəbbüsü” kompleks layihəsi və s.) ilə yanaşı, DHƏF-in dəstəyi ilə ilk dəfə keçiriləcək tədbirlər də plana daxil edilib. Onların arasında “Dünya xalqlarının eposu” Beynəlxalq festivalı, “Qayaüstü mədəniyyət: mif, rəsm, dünya” elmi seminarı kimi layihələr var.

2020-ci ildə qeyd olunacaq faşizm üzərində Qələbənin yubileyi ərəfəsində hazırlıq işlərinə də böyük diqqət yetirilməsi nəzərdə tutulur. 2019-cu ilin planına ümumilikdə 80-dən çox tədbir-layihə daxil edilib.

İclasda qəbul olunmuş daha bir mühüm qərar DHƏF İdarə Heyəti sədrinin seçilməsi olub. Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunu növbəti dəfə yekdilliklə bu vəzifəyə seçilməsi münasibətilə təbrik edən M.Şvıdkoy vurğulayıb: “Sabitlik inkişafa əngəl deyil”.

## “Mənim o ağ çiçəklərim, dönüb qara torpaq oldu...”

### Tanınmış şair Nurəngiz Günün 80 illik yubileyinə həsr olunmuş tədbir keçirildi

*əvvəli səh. 1-də*

Akademik bildirdi ki, Nurəngiz Günün 80 yaşının işığına toplaşmışıq. Əslində isə bu gecə şeirlərinin yaşı 40-dan bir az gənc olan şairin gecəsidir: “Nurəngiz xanım həyatı boyu şeirlə nəfəs alsa da, ədəbiyyatla yaşasa da, böyük ədəbiyyata 40 yaşında gəldi. Gəldi və bir gün kimi parladı. Nurəngiz Gün Azərbaycan ədəbiyyatında ilk gün deyildi. Şeir hər zaman gözəllərlə dolu olub. Qadın bütün zamanlarda şeirin əbədi qəhrəmanıdır. Dünyanın hər yerində və bütün zamanlarda qadının ədəbiyyatda olması, öndə gedən qələm sahibinə çevrilməsi nadir rast gəlinən hadisədir. Amma Azərbaycanın bu baxımdan bəxti gətirib. XII yüzillikdə Azərbaycanın Məhsəti Gəncəvisi, XIX əsrdə Xurşudbanu Natəvanı var idi. XX yüzilliyin sonlarında ədəbiyyatımızda Nurəngiz Gün adlı şairin səsi eşidilməyə başlandı”.





Rafael Hüseynov bildirdi ki, İncəsənət İnstitutunu (indiki ADMİU) aktyorluq ixtisası üzrə bitirən, Rza Təhmasib kimi böyük sənətkardan dərs alan Nurəngiz xanımı müəllimləri Milli Dram Teatrında görmək istəsələr də, o, radioya üz tutur, diktor olur. Bu müddət ərzində ədəbi aləmlə yaxından maraqlanır və yaradıcı insan kimi özünü ifadə etməyə başlayır: “Nurəngiz Günün bir çox şeirləri Vətənə həsr edilib. Diktor kimi çalışdığı zaman ədəbiyyata nüfuz edən Nurəngiz xanımın əlindən heç zaman Rəsul Rzanın və Nazim Hikmətin kitabları düşməzdi. O, bu ruhla tərbiyə alırdı, bu şeirlərin havasında yetişirdi. Belə böyük şairləri örnək alması onu bir şair kimi yetişdirdi, ədəbiyyatın qoynuna atdı”.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar unudulmaz Nurəngiz Günün yaradıcılığından və insani keyfiyyətlərindən söz açdı. Vurğuladı ki, ədəbiyyata “Tanrı” povesti ilə gələn Nurəngiz xanım sonradan istedadlı şair, publisist və gözəl insan kimi tanınıb. Onun şeirlərində qəm-kədər notları üstünlük təşkil edir. Bu kədər xalqımızın başına gətirilən müsibətlərdən qaynaqlanırdı. 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağ dərdi şairin yaradıcılığında yeni bir səhifə açmışdı. Bu faciələri öz başına gətirilən müsibətlər kimi dərk edirdi. Onun “Xocalı simfoniyası” bu mövzuda yazılmış ən təsirli əsərlərdən biridir. Nurəngiz Günün ən böyük xoşbəxtliyi özündən sonra zəngin irs qoymasıdır: “O, yaradıcılığa gec başlasa da, qısa müddətdə maraqlı əsərlər qələmə aldı. Təəssüf ki, biz onun haqqında keçmiş zamanda danışırıq. Ancaq deyə bilərəm ki, o, heç zaman unudulmayacaq, ədəbiyyatsevərlərin qəlbində daim yaşayacaq”.

Çıxışlardan sonra şairin ömür yolundan bəhs edən videoçarx nümayiş olundu, şeirləri əsasında hazırlanmış ədəbi-bədii kompozisiyalar təqdim edildi.

Sonda Nurəngiz Günün qızı, Milli Məclisin deputatı Jalə Əliyeva səhnəyə çıxaraq tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

**F.HÜSEYNOV**

## Metroda incəsənət

### “Nəriman Nərimanov” stansiyasında “Azərbaycanın görkəmli rəssamları” sərgisi açılıb

Paytaxt metrosunda növbəti sənət layihəsinə start verilib. Dekabrın 20-də metronun “Nəriman Nərimanov” stansiyasında “Azərbaycanın görkəmli rəssamları” adlı sərginin açılışı keçirildi. Layihə “Bakı Metropoliteni” QSC və Azərbaycan Milli İncəsənət Muzeyinin təşkilatçılığı, “Bravo” supermarketlər şəbəkəsinin dəstəyi ilə gerçəkləşir.



Tədbirdə Mədəniyyət Nazirliyi İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İntiqam Hümbətov, Milli İncəsənət Muzeyinin İnnovasiya şöbəsinin müdiri Səbinə Ağamirova iştirak edirdilər.

“Bakı Metropoliteni” QSC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov çıxış edərək sərginin Azərbaycan təsviri sənətinin təbliğinə xidmət etdiyini dedi: “Sərgidə Milli İncəsənət Muzeyinin kolleksiyasından XVII əsrdən müasir dövrədək 85 boyakarlıq və qrafika əsərinin reproduksiyaları təqdim olunur. Altı ay davam edəcək sərgidə metro sərnişinləri Azərbaycanın təsviri sənət tarixində önəmli yer tutan Mirzə Qədim İrəvani, Əzim Əzimzadə, Tağı Tağıyev, Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Səttar Bəhlulzadə, Tahir Salahov, Çingiz Fərzəliyev və başqa rəssamların yaradıcılıq nümunələri ilə tanış olmaq imkanı əldə edəcəklər”.

Vurğulandı ki, smartfon və ya planşetlərə “QR-Code” proqramı yükləyərək görkəmli rəssamların əsərləri ilə virtual şəkildə də tanış olmaq mümkündür.

Bakı İncəsənət Mərkəzi Yaradıcılıq Birliyinin rəhbəri Rafael Gülməmmədli də layihənin əhəmiyyətindən bəhs etdi. Bildirdi ki, məqsəd Azərbaycanın görkəmli rəssamlarının sənət dünyası ilə Bakı sakinlərini və şəhərimizin qonaqlarını yaxından tanış etməkdir.



Qeyd edək ki, Azərbaycan Milli İncəsənət Muzeyinin əməkdaşları gün ərzində tamaşaçılara sərgi barədə geniş məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

“Bakı Metropoliteni” QSC-nin son illər “MetroGallery” layihəsi çərçivəsində keçirdiyi sosial aksiyalar maraqla qarşılanır. Bu sırada “Dünya rəssamları” sərgisi, talassemiyalı uşaqlara yardım məqsədilə uşaqların rəsm əsərlərinin nümayişi, Azərbaycan kinosunun 120 illiyinə həsr olunmuş və ölkəmizdə Xəzər dəniz gəmiçiliyinin 160 illiyini əks etdirən sərgiləri qeyd etmək olar.

**FARİZ**

## Bakı Xoreoqrafiya Akademiyasından xəbərlər

Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksinin (BXA) Musiqi fənləri kafedrasının təşkilatçılığı ilə “Üzeyir Hacıbəyli və onun davamçılarının yaradıcılığında xalq çalğı alətlərinin ifasında seçilmiş rəqs nümunələrinə elmi-praktik aspektdən yanaşma” mövzusunda elmi-praktik seminar keçirilib.

Seminarda Bakı Musiqi Akademiyasının elm və yaradıcılıq işləri üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə, Xalq artisti, professor Ramiz Quliyev, BXA-nın professor-müəllim heyəti, tələbələr və qonaqlar iştirak ediblər.



BXA-nın elm və yaradıcılıq işləri üzrə prorektoru, professor Sonaxanım İbrahimova dahi bəstəkarın milli musiqi mədəniyyətimizdə müstəsna xidmətlərindən danışıb. Professor G.Abdullazadə bəstəkarın zəngin musiqi irsi, təkrarsız yaradıcılığı haqqında tədbir iştirakçılarına məlumat verib. Xalq artisti Ramiz Quliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əhsən Əhmədov, dosent Nuridə İsmayılzadə, BMA-nın elmi tədqiqat laboratoriyasının böyük elmi işçisi Rauf Bəhmənli çıxış ediblər. Sonda Ramiz Quliyev Üzeyir Hacıbəyli yaradıcılığından rəqs nümunələrini tarda ifa edib.

* * *

Akademiyada təşkil olunan daha bir seminar “Milli rəqs sənəti: tarix və müasirlik” mövzusuna həsr edilib. Elmi-nəzəri seminarı giriş sözü ilə Musiqi fənləri kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əhsən Əhmədov açaraq, Azərbaycan rəqs sənəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra sənətşünaslıq üzrə elmlər doktoru, professor Abbasqulu Nəcəfzadə “Milli rəqs sənətimizin tarixi və müasirliyi” mövzusunda məruzə ilə çıxış edib. Qeyd edib ki, özündə qədim irs və ənənələrimizi daşıyan Azərbaycanın milli rəqsləri nəsildən-nəslə keçərək xalqımızın həm də həyat və məişətini özündə əks etdirir. Professor həmçinin mərasim rəqsləri (toy, bayram və s.), əmək rəqsləri, uşaqlar üçün rəqslər və əşyalarla (nəlbəki, yaylıq, qaval və s.) rəqslər barədə də məlumat verib.

Daha sonra isə sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aydın Əliyev BXA-nın tələbələrinə “Azərbaycan qədim xalq rəqslərinin tədrisi məsələləri” mövzusunda ustad dərsi keçib. O, instrumental alətlərlə “Xalabacı”, “Turacı”, “Şəlalə”, “Tello”, “Vağzalı” və digər gözəl milli rəqs nümunələrini ifa edib. Ustad dərsi tələbələrin böyük marağına səbəb olub.

* * *



BXA-da bəstəkar, beynəlxalq müsabiqələr laureatı, Musiqi fənləri kafedrasının müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Lalə Cəfərovanın müəllif konserti keçirilib.

Konsertdə Azərbaycan Televiziya və Radiosunun musiqi kollektivlərinin solistləri Şeyda Ələsgərova, İbrahim Babayev, Akif Rəhimov, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti Turanə İsayeva, Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin solisti Camal Bayramlı, BXA-nın dosenti Nigar Ağayeva və akademiyanın tələbələri L.Cəfərovanın “Karvan və rəqs”, “Dəniz və tokkato”, “Rüstəm və Söhrab”, “Blyuz” və “L” və digər musiqi kompozisiyalarını səsləndiriblər.

## Əl əməyi, göz nuru...



Dekabrın 18-də metronun “İçərişəhər” stansiyasında Azərbaycan sənətkarlarının əl işlərindən ibarət satış-sərgi keçirildi. Yarmarkanın məqsədi gənc istedadların yaradıcılığını stimullaşdırmaq və əl işlərinin satışına şərait yaratmaqdır.

Sərgi ilə biz də tanış olduq. Bir-birindən maraqlı nümunələr xoş ovqat yaradırdı. Satış-sərgi Yeni il bayramı ərəfəsində əsl hədiyyə məkanı idi. Toxuculuq işləri, zinət əşyaları, keramika üzərində rəsmlər, milli ornamentli bəzək əşyaları...

Burada əl işləri təqdim olunan Aytac Rəhimova ixtisasca rəssamdır, Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. Müsahibim bildirir ki, evdə yaxınları və dostları üçün aksesuarlar hazırlayıb və bir gün öz şəxsi biznesini qurmaq qərarına gəlib. Artıq 3 ildir ki, əl işlərini “Mücrüm” brendi ilə satışa çıxarır. Onların arasında təbii daşlardan hazırlanmış məmulatlar, milli ornamentli, gözəl naxışlarla süslənmiş bəzək örnəkləri üstünlük təşkil edir.

Yarmarkada xalq tətbiqi sənəti ilə məşğul olan sənətkarlara da rast gəldik. Onlar sərgidə daha çox kiçikölçülü əl işlərinə üstünlük verdiklərini bildirdilər. Turistlər üçün hədiyyəlik sənət nümunələrinə tələbat yüksəkdir.

Sərginin iştirakçısı Nazilə Mustafabəyova bildirir ki, yaratdığı əl işləri əsasən muncuqlardan və qiymətli metal üzərində daşlar olan bəzək əşyalarından ibarətdir. Minalı, firuzə qaşlı sırğalar, bilərziklər maraqla qarşılanır. Satışın səviyyəsi isə mövsümdən asılıdır. Əsasən bayram ərəfələrində satış və sifarişlər çox olur.

Sərgidə dekorativ gül işləmələri, səbətlər və s. də diqqəti çəkir. Mövsümə uyğun, yundan toxunmuş dekorativ ev bəzək əşyaları maraq doğurur. Xanımların bu nümunələri xoş qarşıladıqlarını müşahidə etdik.

Gənc xanımların əl əməyi, göz nuru ilə hazırladıqları sənət nümunələrini əldə edən hər kəs bu yarmarkadan xoş təəssüratla ayrılır. Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Sənəm Əliyeva rəfiqələrinə və özünə “Ay daşı” adlanan muncuqlardan bilərzik aldığını bildirir. Digər alıcı Gülşən Xaspoladova isə nəvəsinə rəngli yun saplarla toxunmuş gəlincik alır...

Metronun “İçərişəhər” stansiyasından çıxan paytaxt sakinləri və şəhərimizin qonaqları sərgi-yarmarka ərazisində həm də gözəl musiqiyə qulaq kəsilirdilər...

**Lalə AZƏRİ**

# Görkəmli fırça ustasının yubiley sərgisi davam edir



Bakı Ekspo Mərkəzində dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi davam edir. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən sərgi ilə tanış olmaq üçün hər gün sənətsevərlər bu məkana üz tutur, rəssamın zəngin yaradıcılıq dünyasından zövq alırlar. Dekabrın 19-da sərgiyə gələnlər arasında mədəniyyət işçiləri, şəhər sakinləri, müxtəlif peşə sahibləri vardı.

Paytaxtdakı Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şeyla Heydərova sərgidə mənəvi rahatlıq tapdığını deyir: "Tahir Salahov dünyaca tanınmış rəssamdır. Biz onun bir sıra əsərlərini görmüşük. Amma bu il onun yubileyi münasibətilə ilk dəfə olaraq belə bir geniş sərginin şahidi oluruq. Doğrudan da, hər şey möhtəşəmdir. Düzgün qurulmuş işıq sistemi sərgilənən nümunələri daha baxımlı edir".

Həmsöhbətim bildirir ki, bu sərgini maraqlı edən daha bir cəhət rəssamın məşhur tablolarının xalça üzərinə köçürülməsidir. Bunlarla yanaşı, xalqımızın dahi şəxsiyyətləri, görkəmli bəstəkarlarının portretləri sərgidə xüsusi yer tutur: "Əvvəllər də Bakıda Tahir Salahovun sərgiləri təşkil olunub. Mən onun əsərlərinə həmişə valeh oluram. Həmin əsərləri xalça üzərinə köçürən xalçaçı rəssamlara da öz minnətdarlığımı bildirirəm. Onlar da bu əsərlərə böyük sevgi ilə yanaşaraq orijinalından fərqlənməyən gözəl işlər ərsəyə gətiriblər".

Bakı şəhər sakini İlqar Ələsgərov ilk dəfədir ki, ölkəmizdə belə böyük rəsm sərgisinin şahidi olduğunu vurğulayır: "Sərgi haqqında eşidəndə bura gəlməyi qərara aldım. Özüm də rəsm sənətinə böyük həvəs göstərirəm. Burada nümayiş olunan əsərlər dünyaca məşhurdur. Ona görə də belə bir sərgini izləmək fürsətini əldən verə bilməzdim. Təşkilatçılara minnətdarlığımı bildirirəm".

Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı İnara Əliyeva sərgidən böyük zövq aldığını bildirir: "Məşhur rəssamımız Tahir Salahovun yaratdığı hər bir rəsm özlüyündə çox möhtəşəmdir. Bu sərgidə də böyük sənətkarın özünəməxsus sərt üslubunun geniş şahidi oluruq. Hər bir əsərə tamaşa etməkdən böyük zövq alıram. Tahir Salahovun Azərbaycanın dahi şəxsiyyətlərinə həsr etdiyi çoxsaylı portretləri var. Bu sərgini mənim üçün daha da maraqlı edən həmin əsərlərin burada nümayiş olunmasıdır".

* * *

Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahovun görkəmli şəxsiyyətləri, incəsənət xadimlərini, sadə zəhmətkeş obrazını, fərqli və maraqlı təbiət təsvirlərini özünəməxsus tərzdə, rənglərin dili ilə xüsusi orijinallıqla təqdim etdiyi əsərləri də ziyarətçilərdə xüsusi maraq oyadır.

* * *

Qeyd edək ki, sərginin dörd min kvadratmetrlik sahəni əhatə edən ekspozisiyasında rəssamın yaradıcılığının bütün dövrlərini əks etdirən nümunələr yer alıb.



Azərbaycan Milli Kitabxanasının kollektivi Bakı Ekspo Mərkəzində Tahir Salahovun 90 illik yubileyinə həsr edilmiş sərgini ziyarət edib. Sərgidə rəssamın yaradıcılığının bütün dövrlərini əhatə edən həm milli, həm də dünyəvi koloriti özündə əks etdirən, rənglərin dolğun, qeyri-adi çaları ilə təsvir edilmiş, hər biri özlüyündə yeni sənət tapıntıları olan tablo, natürmort, portret və peyzajları göz oxşayır.

Burada Tahir Salahovun şəxsi kolleksiyasından, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından seçilmiş 40-dək rəngkarlıq əsəri, 80-dək xalça üzərinə köçürülmüş tablo, eləcə də 350-dək fotoşəkil nümayiş olunur.

Tahir Salahovun yubiley sərgisi dekabrın 23-dək davam edəcək.

**FARİZ**

# Arif Məlikovun 85 illiyi münasibətilə konsert

Böyük bəstəkar, SSRİ Xalq artisti, akademik Arif Məlikovun 85 illik yubileyi münasibətilə dekabrın 18-də Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində konsert keçirilib.



Konsertin aparıcısı musiqişünas Leyla Həsənova bəstəkarın həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Sonra bəstəkarın fortepiano əsərlərindən, balet musiqisindən, eləcə də kino musiqisindən nömrələr məktəbin şagirdləri və müəllimləri tərəfindən səsləndirilib.

A.Məlikovun həmçinin istedadlı rəssam olması nəzərə alınaraq məktəbin rəsm şöbəsi şagirdlərinin əl işləri də nümayiş etdirilib. Ekranda yubilyar sənətkarın həyat və yaradıcılığını əks etdirən foto-slayd, əsərlərindən fraqmentlər, həmçinin bəstəkar haqqında digər görkəmli şəxslərin fikirləri təqdim olunub.

Tədbirdə qonaq qismində iştirak edən A.Məlikovun tələbələrindən Ceyhun Allahverdiyev və Gülnarə Məmmədova öz təəssüratlarını bölüşüblər. Ceyhun Allahverdiyev müəllimi haqqında xatirələrini söyləyib və öz əsərlərindən ibarət bir neçə kitabı məktəbin kitabxanasına hədiyyə edib.

# Musiqi məktəblərinin muzeylərlə əməkdaşlığı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin G.Şaroyev adına 35 nömrəli onbirillik Musiqi məktəbinin və Xırdalan şəhər onbirillik Musiqi məktəbinin şagirdləri dünya şöhrətli bəstəkar Qara Qarayevin Bakıdakı ev-muzeyinin qonağı olublar.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova məktəblilərlə muzey və Qara Qarayev haqqında sual-cavab şəklində söhbət aparıb.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbə kvartetinin ifasında Qara Qarayev musiqisinin sədaları altında məktəblilər muzey eksponatları ilə tanış olublar. Sonra G.Şaroyev adına məktəbin şagirdlərinin ifasında Qara Qarayevin əsərlərindən ibarət konsert təqdim olunub. Bəstəkarın həyat və yaradıcılığı haqqında məktəbin musiqişünas müəllimi Nüşabə Quliyevanın hazırladığı məlumatlar da maraqla dinlənilib.



Sonda məktəbin direktoru, Əməkdar müəllim Yusif Vəliyev muzeyin əməkdaşlarına təşəkkürünü bildirib.

# Hərbçilərə musiqili bayram sovqatı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və Nizami Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə N saylı hərbi hissədə 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə həsr olunmuş bayram konserti keçirilib.

Müğənni Elnur Məmmədov şən mahnılardan ibarət konsert proqramı ilə çıxış edib. Onun vətənpərvərlik ruhunda olan ifaları əsgərlərdə xoş əhval-ruhiyyə yaradıb. Həmçinin rəqs kollektivlərinin rəngarəng ifaları maraqla qarşılanıb.

Hərbi hissənin rəhbərliyi keçirilən tədbirə görə təşkilatçılara təşəkkürünü bildirib.

# Yeniyetmə istedad piano müsabiqəsində qalib olub

On yaşlı istedad, pianoçu Ləman Seyidova Belçikanın paytaxtı Brüsseldə keçirilən Beynəlxalq "Cesar Franck Piano" müsabiqəsində ikinci yeri qazanıb. Bu yeniyetmə pianoçunun növbəti nailiyyətidir.



O, 2017-ci ilin dekabrında Avstriyanın paytaxtı Vyanada keçirilən Beynəlxalq "Edelweiss" ifaçılıq müsabiqəsinin də qalibi olub. Anası Kəmalə Seyidova bildirib ki, qızının arzusu dünya şöhrətli pianoçu olub, müxtəlif ölkələrdə konsertlər verməklə, Azərbaycanın adını yüksəltməkdir.

Ləman Seyidova Bakı şəhəri 23 nömrəli məktəbin 5-ci sinif şagirdidir. O, həmçinin 35 nömrəli Uşaq musiqi məktəbində fortepiano ixtisası üzrə musiqi təhsili alır. Onun nailiyyətlər qazanmasında musiqi müəlliməsi Kəmalə Əmirovanın da böyük əməyi var.

# Həyat musiqidirsə...

İstedad zaman keçdikcə zəhmət və öyrənmək əzmi ilə parlayıb layiqli dəyərini alır. Çünki istənilən yaradıcılıq forması özünün əsasını bu üçlüyün uğurlu sintezində, daha doğrusu, ayrılmaz bağlılığında tapır. Gənc müsahibimiz isə buna bir əlavəsini də edir. Yaşına və həyat tərzinə sığdırdığından da böyük təəssübkeşlik və vətənpərvərliklə...

19 yaşlı istedadlı soydaşımız Dinara Mahmudova Rusiyanın Sankt-Peterburq şəhərində doğulub. 4 yaşından musiqi ilə məşğul olmağa başlayıb. İki musiqi albomu (o cümlədən Azərbaycan vokal musiqisi nümunələrindən ibarət) işıq üzü görüb. Sankt-Peterburqda bir neçə musiqi müsabiqəsində laureat adını qazanıb. Uşaq incəsənət məktəbini fərqlənmə diplomu ilə bitirdikdən sonra Sankt-Peterburq Dövlət Akademik Kamera Zalında solo konsertlə çıxış edən həmyerlimiz musiqi ictimaiyyətinin diqqətini cəlb edə bilib.

Zaman keçdikcə istedadını professional şəkildə cilalamaq istəyi ilə Avropaya üz tutur. Praqa Konservatoriyasına daxil olur. Hazırda burada klassik vokal üzrə təhsil alan həmyerlimizin məqsədi dünya miqyaslı ifaçı olmaqdır.

Onunla söhbətimizdə musiqimizə, bəstəkarlıq məktəbimizə böyük sevgisini hiss etdik:

- Mənim üçün Azərbaycan musiqisi elə bir ənginlikdir ki, orada yalnız böyük bir eşq var. Dahi Üzeyir Hacıbəylinin "Arşın mal alan"ı, "Leyli və Məcnun"u, Müslüm Maqomayevin "Şah İsmayıl"ı, Fikrət Əmirovun "Min bir gecə"si, Qara Qarayevin "İldırımlı yollarla" və "Yeddi gözəl" baletləri o qədər möhtəşəm əsərlərdir ki, insan onları hər dinləyib-izləyəndə bir ayrı zövq alır. Mən bu kimi musiqi əsərlərini dinləyə-dinləyə böyümüşəm və hər dəfə bu böyük sənətkarları yetişdirən xalqın bir parçası olmağımla qürur duydum.



Müslüm Maqomayev, Rəşid Behbudov, Şövkət Ələkbərovanın ölməz səs-sənətləri o qədər əvəzsizdir ki, hər konsertimdə, hər hansı tədbirdə çıxışımda bir ifa da olsa, onların repertuarına müraciət edirəm.

**- Yəqin sevdiyin bu ifalar sənə uğur da gətirib...**

- Bəli, bir neçə il əvvəl Emin Sabitoğlunun məşhur "Bakı, sabahın xeyir" mahnısı ilə Sankt-Peterburqda keçirilən "Xalq mahnıları" adlı müsabiqədə baş mükafatı qazandım. Çalışıram bütün müsabiqələrdə bir Azərbaycan mahnısı ifa edim. Ali təhsilimi klassik vokal üzrə alıram və sərbəst ifaçılıq dərslərimdə də daha çox milli musiqilərimizdən oxumağa çalışıram. Çünki arzum Azərbaycanın böyük musiqi sənətini tərənnüm etməkdir.

**- Müasir gəncliyin marağını çəkən fərqli musiqi janrları olduğu halda niyə məhz klassik vokalçılıq?**

- Hazırda xeyli sayda müasir musiqi texnika-texnologiyaları var və onlar, bir növ, ifaçılığı arxa plana keçirməyə cəhd edir. Baxın, hətta ən zəif, vokal baxımından ən sadə səsi də kompüterin "gücü" ilə dəyişib qüvvətləndirə bilirlər. Bu janra yönəlməyim, təbii ki, daha çox müəllimlərimin, ifamı dinləyib dəyərləndirən musiqi mütəxəssislərinin təşəbbüsü ilə oldu və bundan çox məmnunam. Çünki istənilən müasirliyin bağlı olduğu klassika daimidir, ölməzdir.

**- Yaxın dinləyici olaraq sadəcə klassik musiqilərlə kifayətlənmirsən?**

- Əlbəttə, yox. Sadəcə yaxşı, keyfiyyətli musiqiləri dinləyirəm. Bu, caz da ola bilər, estrada da, rok da. Əsas odur ki, keyfiyyətli, yeni peşəkar musiqi və ifa olsun. Musiqi mənim üçün həyatın, dünyanın ən sonsuz zövqüdür. Ən qəmli, hazin musiqi belə insanın ruhunu mütləq bir emosional yüksəlişə səsləyir. Odur ki, əsas dinləmək və musiqidən ruhuna pay ayırmaqdır. Ölməz Tofiq Quliyevin mahnılarını hər dinlədikdə məhz bu fikri təsdiqləyirəm: gözəl musiqi, mahnı ifa olunduğu o bir neçə dəqiqədə adamı özünün də hiss etmədiyi bir səadətə qovuşdurur.

**- Müxtəlif konsert salonlarında çıxışların olub. Bakıda konsert vermək istəyin varmı?**

- Əlbəttə, bu mənim ən böyük arzumdur və yəqin ki, qarşıdakı ilin yazında bunu gerçəkləşdirəcəyik.

**HƏMİDƏ**

# Qan yaddaşımız İrəvan teatrının repertuarında

İrəvan Dövlət Azərbaycan Dram Teatrı Quba, Sabirabad, Ağcabədi (Taxtaköprü qəsəbəsi), İmişli və Samux rayonlarında qastrol səfərində olub. Teatrın kollektivi dekabrın 19-da yekunlaşan qastrolda şair-dramaturq İftixarın "Soyqırımı tarixinin dastanı" tamaşasını göstərib.



Tamaşanın quruluşçu rejissoru, səhnə tərtibatçısı, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev, bəstəkarı Muxtar Abseynov, rejissor assistenti Bəhruz Hikmətoğlu, musiqi tərtibatçısı Çingiz Xəlilovdur. Rollarda Natiq Həziyev, Əmrulla Nurullayev, Müdvər Nemətova, Niyaməddin Səfərəliyev, Şəbnəm Cəbrayılova, Rövşən Cəfərov, Ruhiyyə Eyvazova, Sevinc Hüseynova, Güney Əliyeva, Gültac Əsgərova, Səbinə İmamverdiyeva, Arzuman Tanrıverdiyev və Bəhruz Hikmətoğlu çıxış ediblər. Qan yaddaşımızdan bəhs edən tamaşa izləyicilərdə maraq doğurub.

İrəvan teatrının dekabrın 25-də Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində təqdim edəcəyi "Ölüm həsrəti" tamaşası da bu mövzuya həsr olunub. Yazıçı-dramaturq Sabir Şahtaxtının eyniadlı pyesi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Nicat Mirzəzadə, bədii rəhbəri Əməkdar artist Sərvər Əliyev, quruluşçu rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatçısı Çingiz Xəlilovdur.

Mir Möhsün Nəvvab – 185

# Ensiklopedik zəka sahibi

*əvvəli səh. 1-də*

100-dən artıq şairin həyat və yaradıcılığı haqqında məlumatların yer aldığı təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunub. Nəvvabın tarixi əhəmiyyətli işlərindən biri də 1905-ci ildə yazdığı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsi baxımından xüsusi önəm kəsb edən "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" adlı əsəridir.

* * *

Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvab 1833-cü ildə Şuşada anadan olub. İlk təhsilini ruhani məktəbində alıb, ərəb, fars dillərini öyrənib. A.Sarıcalı mədrəsəsində astronomiya, kimya, riyaziyyat və digər elmlərə yiyələnib, sonradan rus dilini də mənimsəyib. Nəvvab öz evində iki teleskop qoyaraq kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmış, səma cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib etmişdi. Alim kimya laboratoriyasında şagirdləri ilə sınaqlar keçirir və Orta əsrlərdə yaşamış kimyagərlər tərəfindən verilən nüsxələri yoxlayırdı.

Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab, heç şübhəsiz, öz bədii yaradıcılığı ilə vermişdi. Bir çox akvarel rəsmləri, kitab miniatürləri, bina və məscidlərə vurduğu naxışlar bizə yadigar qalıb. Milli musiqişünaslıqda Nəvvabın mühüm xidmətləri olub. O, XIX əsrin 80-ci illərində Hacı Hüsü ilə birgə "Musiqiçilər məclisi"ni yaradır. Burada musiqi sahəsinin ən aktual məsələləri barədə müzakirələr aparılırdı. Məclisdə Hacı Hüsü, İslam Abdullayev, Cəmil Əmirov, Seyid Şuşinski, Sadıxcan və digər məşhur xanəndələr iştirak edirdi.

Mir Möhsün Nəvvabın "Vüzuhül-ərqam" ("Rəqəmlərin izahı") məşhur musiqi risaləsi ilk dəfə 1913-cü ildə Bakıda işıq üzü görüb. Tanınmış musiqişünas alim, akademik Zemfira Səfərova yazır ki, həmin risalədə müəllif ayrı-ayrı muğamların, bəzi dəsgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab ilk dəfə dəsgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəsgahın adını çəkir: "Rast", "Mahur", "Şahnaz", "Rahavi", (yaxud



Rahab), "Çahargah" və "Nəva". Nəvvabın sözlərinə əsasən, ifa olunan dəsgahın tərkibi bir çox hallarda ifaçının zövqündən və qabiliyyətindən asılı olur. Alim həmin əsərində Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adını çəkir.

Mir Möhsün Nəvvab bir neçə muğamın mənşəyini və onların adının etimologiyasını da araşdırıb. Bir çox muğamların adlarını onların yaranmasında rol oynamış şəxslərlə və yer adları ilə əlaqələndirən Nəvvab "Rast" muğamını bahar mehi, "Rahavi"ni yağış damlaları, "Çahargah"ı ildırım çaxması, "Dügah"ı fontan vuran bulaqlarla, "Humayun"u quşların uçuşu, "Nəva"nı bədbəxt sevgililərin ah-naləsi, "Mahur"u suların şırıltısı, "Şahnaz"ı bülbüllərin cəh-cəhi, "Üşşaq"ı quşların havada süzməsi, "Üzzal"ı meteoritlərin hərəkəti ilə əlaqələndirib.

* * *

Nəvvabın poetik irsi əsasən onun Azərbaycan və fars dillərində tərtib etdiyi divanlarında, təzkirəsində toplanıb. Şairin 148 səhifədən ibarət farsca divanı 1897-ci ildə, 128 səhifədən ibarət azərbaycanca divanı isə 1898-ci ildə özünün Şuşadakı şəxsi mətbəəsində daşbasma üsulu ilə çap edilib. Azərbaycan dilindəki divanında klassik şeirin bir sıra janrlarında yazılmış şeirlər - qəzəl, mürəbbe, müxəmməs, müsəddəs, müəşşər, çarparə, müfrədlər, o cümlədən qoşmaları yer alıb. Divanın dibaçəsində müəllifin özü haqqında məlumat, əsəri yazmağa başladığı tarix və əsərlərinin siyahısı verilib. Şairin bədii nümunələri ilə tanış olanda onun Azərbaycan klassik poeziyasının görkəmli nümayəndələri, xüsusilə də Məhəmməd Füzuli və Molla Pənah Vaqif ənənələri ilə bağlılığını görmək mümkündür. Şair maraqlı bir üsuldan istifadə edərək Füzulinin "Leyli və Məcnun" poemasından iki qəzələ bir qəzəllə nəzirə yazıb. Füzulinin eyni qafiyəli – "Yar rəhm etdi məgər naləvü əfğanimizə" misrası ilə başlanan 7 beytlik və "Küfri-zülfin salalı rəxnələr imanimizə" misrası ilə başlanan 6 beytlik qəzəllərinə Nəvvab:

*Qəm qübarı yatıb əzbəs*
*dili-viranəmizə,*
*Kafər ağlar bizim*
*əhvali-pərişanimizə...*

mətləli 17 beytlik nəzirə ilə cavab verib.

Qarabağ ədəbi mühitinin əksər nümayəndələri kimi, Nəvvab da Vaqifin təsirindən kənarda qalmayıb. Onun "Yox qəmi ol kimsənin kim, dilbəri dilbər ola" misrası ilə başlanan 6 bəndlik mürəbbesində Vaqifin bir qoşmasının təsiri duyulur.

* * *

Mənbələrdə qeyd olunur ki, Nəvvab müxtəlif elmlərə bələd və açıqfikirli bir ziyalı olduğu üçün Şuşadan, ətraf bölgələrdən şairlər və musiqiçilər onun mənzilinə toplaşar, yeni şeirlərini oxuyar, musiqiyə qulaq asarmışlar. "Məclisi-üns" ədəbi məclisi Natəvanın sarayına köçdükdən sonra Nəvvabın təşəbbüsü ilə "Məclisi - fəramuşan" məclisi təşkil edilir. Üzvləri isə "Məclisi-üns"ün unutduğu şairlər olur. Məclisin məşğələləri qışda Mir Möhsünün mənzilində, yay aylarında isə Cıdır düzündəki "Ağzıyastı kaha" deyilən yerdə keçirilərmiş. Məclis üzvlərini dünya hadisələri və mədəni yeniliklərlə tanış etmək üçün Nəvvab Bakıdan "Əkinçi", Tiflisdən "Ziya" və "Kəşkül" qəzetlərini, Hindistandan fars dilində nəşr olunan "Həblül-mətin" məcmuəsini alırdı. 1903-cü ildə Nəvvabın təşəbbüsü ilə qiraətxana-kitabxana açılır və bundan sonra ədəbi məclisin fəaliyyəti zəifləməyə başlayır. Qiraətxanaya şairin oğlu Mir İbrahim rəhbərlik edib.

Azərbaycan mədəniyyətinin inkişafına mühüm töhfələr verən Mir Möhsün Nəvvab 1918-ci ildə Şuşada vəfat edib. Ömrü boyu doğulduğu eldən kənara çıxmasa da, bu gün onun şöhrəti ölkəmizdə və onun hüdudlarından uzaqlarda da tanınır.

**Aynurə ƏLİYEVA**

## Muzeydə Raxmaninovun 145 illiyinə həsr edilən konsert



Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyində məşhur rus bəstəkarı və pianoçu Sergey Raxmaninovun 145 illiyi münasibətilə forte-piano və violonçel əsərlərindən ibarət konsert proqramı təqdim edilib.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov və digər qonaqların qatıldığı tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şeyla Heydərova açaraq bəstəkarın ömür yolundan və yaradıcılığından danışıb.

Konsertdə Əməkdar artist, violonçel ifaçısı A.Miltıx, beynəlxalq müsabiqələr laureatı S.Tağızadə və Bakı Musiqi Akademiyasının tələbələri S.Raxmaninovun "Vokaliz", "Violonçel üçün sonata", "Elegiya", "Musiqili an", "Etüd-lövhə op.39", "3 prelüd" əsərlərini ifa ediblər. Həmçinin S.Raxmaninovun həyat və yaradıcılığına həsr olunmuş sənədli filmlərdən fraqmentlər təqdim edilib.

Xatirə axşamı S.Raxmaninovun "Vokaliz" əsərinin M.Rostropoviçin müşayiəti və görkəmli opera müğənnisi Qalina Vişnevskayanın ifasında lent yazısının səslənməsi ilə yekunlaşıb.

## Vaqif Mustafazadənin əsərləri səsləndirilib

Dekabrın 18-də Beynəlxalq Muğam Mərkəzində bəstəkar, pianoçu, caz-muğam üslubunun yaradıcısı, Əməkdar incəsənət xadimi Vaqif Mustafazadənin yaradıcılığına həsr olunmuş konsert proqramı təqdim edilib.



Mədəniyyət Nazirliyi və Vaqif Mustafazadə adına Fondun təşkilatçılığı ilə gerçəkləşən konsertdə Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının gənclər kamera orkestri "Vaqifə ithaf" əsərini səsləndirib.

Daha sonra respublikanın tanınmış caz ustaları Emil Əfrasiyab, Əməkdar incəsənət xadimi Cavan Zeynallı, İsfar Sarabski, Mircavad Cəfərov və caz festivallarının laureatları çıxış ediblər. Caz musiqisi axşamında Vaqif Mustafazadənin müəllifi olduğu əsərləri səsləndirilib.

# "Bütün ZAMANLAR OPERASI" və...

### "həyatdakılardan da real Toska-Kavaradossi cütlüyü"nün müəllifi, "sağ ikən klassik", "operanın hələ ki, ən ön flaqmanı" kimi epitetlərlə bahəm...

həm də – 1924-cü ilsonu çoxheyətli bir orkestrin qəflətən susmasına, nəhəng bir salondakı çoxminli tamaşaçı kütləsinin təəccübdən bir an donmasına, teatr-tamaşa kollektivlərinin "ən dinməz"i hesab edilən dirijorunsa (özü də kim, kim – Artur Toskanini!) öz ifa çubuğunu partitura üstə atıb danışmasına "bais" Cakoma Puççini...

Sağlığında çox qeyri-adiliklər doğurub, xeyli gözlənilməzliklər törətmiş bu dahinin bəri başdan vurğuladığım bu ömürsonrası "mane"çiliyinin açması da – elə bu yazısonrasına qalsın; axı, onunla bağlı bu analoqsuz "axirət" qəribəliyinə gələn yol bundanöncəki bir sıra həyati-sənəti "performans"lardan başlayıb.

**Məsələn; –**

qədimdən qədim korifeylər İtaliyasının bu növbəti dahisi öz yeni operası "Madam Batterflay"ın (digər adı – ilk quruluş-qoyuluşda uğur qazanmayan, dostlarının təkidilə yenidən işlədikdən sonra isə triumfa səbəb olan "Çio-Çio San") mövzusunu yenidən-yeni bir ölkədə – 1907-ci ildə "Metropoliten-Opera"dakı bir premyerada iştirakçün gəldiyi Nyu-Yorkda tapıb.

Üç il sonra isə bu şəhərə yenidən (növbəti bir premyerada iştirakçün) gəldiyində "kəşf" etdiyi yeni opera – "Manon Lesko"!

Və... siz bir bu bəxt-qismət "dilemma"sındakı səbəb-nəticə əlaqələrinin fərqinə varın; o tamaşa, ingilis dilində bir kəlmə bilməyən bəstəkarın o dərəcədə xoşuna gəlir ki, hələ xəyalında cücərməyə başlayan operasının partitur-uvertürasının ilk taktlarını elə salonda (sükutdan "milçək vızıltısı" belə eşidiləsi o teatrın lojasındaca!) zümzüməmələməyə başlayır və yalnız "dəlicəsinə" frazası ilə ifadə olunası bir istəklə, həmin o faciə taleli "oyun səhnəsi" qadınlarından xeyli fərqli bir "vokal-arioza səhnəsi" obrazları yaratmaq ideyasına sarılır...

Hələ məşhur "Toska"sının məşqləri əsnasında teatr primadonnasının "qarayaxa" təzyiqləri altında əsas qəhrəmanın partiturasına dəyişikliketmə ("Vissid arte" ariyasını əlavə ilə) "məhkumluğunu", İtaliyanın məişət tarixinə "dahinin dahiyanə qısqancı" kimi düşmüş arvadının onu ev xidmətçisilə sevgi macərasında günahlandırması və xidmətçinin öz həyatına qəsd etməsini "demirik"...

**Yaxud; –**

bu dahinin şəxsi çabasındankənar bir qəribəlik; dünya musiqisevərləri (xüsusən, öz vətəni İtaliya, bəşəri parlamına bünövrəlik etmiş Amerika və "ən incəliklərinədək duyulduğu" İngiltərə publikaları) bu sənətkarın ad gününü sənəddəki "22 dekabr 1858"lə yox, sənətdəki ən zirvə uğur günü – "14 yanvar 1900-cü il"lə qutlamağa başlayıblar. Bu, onun "dünyanın ən populyar on operası"ndan biri sayılan "Toska" şedevrinin premyera tarixçəsidir. Hətta bu "fəxri eyham"ı üç il sonra – "La Fanciulla del West"in premyerasında (əsas partiyalarda əfsanəvi E.Karuzo və Destinini, dirijor – "dünyəvi maestro" A.Toskanini) iştirakçün yenidən yollandığı Nyu-Yorkda onun "üzünə" də vurublar...

Bir çox sənədli və xatirəvi mənbələrə görə, ogünədək neçə-neçə məşhur salonlarda çağlayan sürəkli alqışları, triumfal qarşılamaları bəzən "eşitməzliyə" vurmuş bu opera kralı həmin o möhür-möhtərəm "üzəvurma" anında elə bir mütəəssirlik yaşayıb ki, bu, hətta ömürsonu yazdığı operasının –"Turandot"un bitirilməməsində də rol oynayıb. O "Turandot" ki, bir vaxtlar (C.Verdinin "Aida"sının bəxş etdiyi şöhrətdən sonra) "tamamilə opera bəstəkarı olmaq" qərarını qəbul edib, "Tanrı çeçələ barmağı ilə mənə toxunaraq buyurdu ki, sən yalnız və yalnız teatr üçün yaz" demiş sənətkar, bu əsəri ilə "hətta klassik musiqidən qaçan "uzaqlar"ı da yaxınlaşdırmaq" fikrindəymiş...

Və bütün bunların –

**Səbəb-vəsilələri...**

Bu böyük sənət "inteqral"ının "əlifba"sından başlayaq.

Məsələ burasındadır ki, opera aləminin ildırımsürətli finişçisi Cakomo bu yürüşə "quru yerdən" yox, yüzillər boyu musiqiylə məşğul olmuş bir ailədən başlayıb. Beş yaşındaykən musiqi təlimi üçün əmisinin yanına göndərilən, ilk vaxtlar "əmisinin ən istedadsız və ən itaətsiz balası" hesab edilən (hər səhv nota görə ayağına vurulan "lyasi" zərbəli cəzalarla "mükafat"landırılması və... gələcəkdə orkestrlərdən eşitdiyi hər yanlış not anında ayağının sızlaması faktları da ki, öz yerində!) Cakoma "Milan Konservatoriyasının yetirmələri sırasında şəriksiz vunderkind" adlandırılır, çox tezliklə nəinki bütün Puççinilər şəcərəsinin, həm də özünəqədərki İtaliya musiqi pleyadasının şan-şöhrət öncülünə çevrilir. Lakin o bu zirvəyə yetmək üçün çox eniş-yoxuşlardan keçməli olur.

İtaliyadaxili məşhurluğa "Manon Lesko"dan başlamış bu bəstəkar mütəxəssislər qələmində "bənzərsiz notlar sarayı" kimi epitetlərlə qiymətləndirilən "Bohema" operası ilə dünya şöhrətinə yol alır. Hansı ki, sonralar "ecazkar gözəllik xonçası" da adlandırılası bu operanın "mürəkkəblik", "şaşırıcılıq" kimi təsir-təəssürat elementləri ilk vaxtlar tənqidçilərdən bəzilərini: "Bohema" musiqi tarixində heç bir iz qoymayacaq, müəllif bu əsərini elə indidən səhv iş hesab edə bilər" kimi qənaətlərə vadar edib. Lakin o dövrün nüfuzlu qəzetlərindən birində belə bir fikir də yazılmışdı: "Maestro, əgər Siz bu əsərinizlə opera dünyasına nöqtə qoymuş olduğunuzu düşünmürsüzsə, mən sənətimi dəyişib salyami satıcısı olacağam"...

Məqamkən qeyd edək ki, "qadın qəlbinin bilicisi" sayılan Puççini bu "zərif məxluqat kəhkəşanı" incəliklərini, demək olar, bütün operalarında (xüsusən, tək elə İtaliyada yox, dünyanın əksər teatr kollektivlərində virtuoz vokalçıların daha da təkmilləşməsinə güclü təkan vermiş "Manon Lesko",



"Çio-Çio San", "Qərbdən gələn qız" və "Turandot"da) əks etdirib. Opera dünyasının "ən yaxşı melodik nailiyyəti" hesab olunan "Toska" notlarının-sa, müasir tənqidçilərdən birinin təbirilə desək, "riqqətə gətirmədiyi bir qəlb tapılmaz".

Bu da maraqlıdır ki, əksər əsərlərinin libretto fakturasını "ordan-burdan" (əcnəbi müəlliflərin əsərlərindən) götürmüş Puççini bu operasını da fransız dramaturq V.Sardunun (ilk dəfə məşhur S.Bernarın iştirakıyla Milan teatrında gördüyü və uzun müddət qeyri-adi diqqət-məhəbbət mərkəzində saxladığı) "Toska" pyesi üzərində qurmuşdur.

Və bir neçə kəlmə də "XIX əsrin ən möhtəşəm musiqi yaradıcılığı nümunəsi" sayılan "Toska"nın (həm də təbii ki, Puççininin) –

**Bakı həyatı...**

Əslində, Puççini irsinin ("Bohema", "Çio-Çio-San" və xüsusən, ümumdünya şedevri "Toska"nın) bizim paytaxt yaşamı çoxdanlardan başlayıb, lakin bir qəzet yazısı qapsamında toxunulması mümkün olanlardan danışaq.

Deyək ki, mütəxəssislərin "musiqili dram" da adlandırdığı, məğz, dramatizm, kütləvi səhnələr, habelə, bizim mentalımızda önəm verilən sevgiyə vəfa, əsarətə, zülm-zülmətə etiraz və s. kimi mövzu rəngarəngliyi baxımından çox çətin olan bu operanın əsas partiyaları yaxın keçmişlərə qədər qeyri-azərbaycanlı solistlər (həm də orijinalda yox, rus dilində) oxunurdu. Son illər isə öz vokalçılarımızın (o cümlədən bir neçə il əvvəl ifalarını dinlədiyim xalq artistləri Azər Zeynalov və Qərinə Kərimovanın - həm də orijinala xələl gətirməyəcək dərəcədə milli təhər-tövr ovqatları əlavələrilə) ifalarında bu qədim və yeni Bakımızın möhtəşəm opera səhnəsində çox maraqlı Kavaradossi, çox gözəl Toska obrazları ilə qarşılaşmaqdayıq.

Yuxarıda bu operanın bizim xəlqi hal-əhvalımızla xeyli səsləşməsilə bağlı dediyim sözlərə müvafiq olaraq (həm də yazıda musiqi əsərindən fraqment verməyin mümkünsüzlüyünə görə) əlavə edim ki, operada cərəyan edən hadisələrin özəyində üç obrazın mübarizəsi durur: qəddar polis rəisi Skarpia, insanpərvər Kavaradossi və bəşəri düşüncəliliyilə bahəm, həm də fərdi xüsusiyyətli, sevgidə etibarlı qadın Toska. Özünü ətrafına aristokrat kimi sırımağa (bununla da istedad və gözəllik mücəssəməsi Toskanı ələ keçirməyə) çalışan Skarpianın öz istəyinə çatmaq yolunda gözəl müğənni Toskanın sevgilisini – rəssam Kavaradossini gözdən salmaq üçün əl atdığı müxtəlif hiylələri (məqamların birində qətlinə fərman verməsini, lakin həm də Toskanın qəzəbinə tuş gələrək həyatını itirməsini) müşayiət edən ecazkar musiqi parçaları, ariya və ariozalar operanı heyrətamiz dərəcədə canlandırır. Nəticədə isə... (lap bizim məlum muğam operalarımızın final taleyi kimi) Toska özünü məhbəs qalasından yerə atır...

Və belə bir ədəbi-bədii ölüm-itim ardınca, "bəşər kisəsi"ndən getmiş hesab edilməli sənədli bir –

**Əbədi ağır itki**

Bu yarımbaşlığı "Nakam "Turandot..." da adlandırmaq olar...

Bəli, bu yazının başlığındakı "1924-cü ilsonu" ifadələrinin açması.

Möhtəşəm, teatral mədəniyyət və qayda-qanunlara az qala dövlət konstitusiyası qədər əməl edən Milan teatrında "Turandot" operası gedir. Bəstəkarın dostu, əfsanəvi dirijor Artur Toskanini operanın son notunda çubuğunu kənara qoyub deyir: "Burda ölüm bəstəkarın işini yarımçıq qoydu və o, operanı bitirə bilmədi"...

**Tahir ABBASLI**

əvvəli səh. 1-də

# Yeni il gəlir...
# Uşaqları hansı teatra aparaq?

### Əbədi qəhrəmanlar yenidən səhnədədir

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı davamlı olmasa da, bayram və tətil günlərində balaca musiqisevərləri sevindirir. Həm də təkcə balacaları yox. Məsələn, dekabrın 26-da balacaların çox sevdiyi "Şelkunçik" baleti axşam seansında, ayın 30-da isə gündüz (saat 14.00) göstəriləcək.



Yanvarın 5-də teatr P.Çaykovski və A.Martonun daha bir məşhur nağıl əsasında yazdıqları baleti – "Düyməcik" tamaşasını təqdim edəcək.

Əminik ki, hər iki tamaşa həm uşaqların, həm də valideynlərin xoşuna gələcək. Balacalar klassik rəqs sənəti ilə ünsiyyətdən zövq alacaqlar, siz də öz uşaqlıq illərinizə qayıdıb təəssüratınızı təzələyəcəksiniz.

### Ninzalar Azərbaycan dilində danışır…

Akademik Milli Dram Teatrı ənənəvi olaraq builki Yeni il şənliyində yeni tamaşa ilə balacaların görüşünə gələcək. Teatr səkkiz gün (27, 28, 29, 31 dekabr və 1, 2, 5, 6 yanvar) hər gün dörd seans (saat 11.00, 13.00, 15.00 və 17.00) olmaqla "Ninza tısbağalar və kapitan Cekin macəraları"nı göstərəcək. Tamaşanın quruluşçu rejissoru Anar Sadıqov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, rəqslərin quruluşçusu Lalə Hacıyevadır.

Tamaşanın biletləri hədiyyəlidir. Bəs necə? Axı, tamaşada Şaxba baba və Qar qız da iştirak edir. Onlar isə uşaqları hədiyyəsiz qoymaq istəmirlər.

### Cırtdan da Yeni ili teatrda qarşılayır

Azərbaycan Dövlət Musiqili Teatrı bu il balaca tamaşaçılarını "Cırtdanın Yeni il sərgüzəştləri" ilə tanış edəcək. Yoxsa elə bilirsiniz, bizim Cırtdan təkcə odun gətirmək üçün meşəyə gedəndə başına macəra gəlir? Gənc rejissor Ayla Osmanovanın öz müəllif tamaşası üçün seçdiyi sevimli nağıl qəhrəmanının başından bayramda da macəra əskik olmur...

Teatrın bayram tamaşaları dekabrın 28-də başlayıb yanvarın 6-dək hər gün dörd seans (saat 10.30, 12.30, 14.30 və 16.30) davam edəcək. Yeri gəlmişkən, Musiqili teatrda da biletlər hədiyyəlidir. Tamaşadan öncə Şaxta baba ilə Qar qız uşaqların bayramını təbrik edəcək.

### "Santa Klaus" da burdadır, "Düyməcik" də…

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı balacalara iki tamaşa təklif edir: 22-23 dekabrda və yanvarın 5-də "Santa Klausdan Milad nağılı", 30-31 dekabr və 1-2 yanvar tarixlərində göstəriləcək "Düyməcik" nağıl-tamaşası. Danimarkalı yazıçı Hans Xristian Andersenin məşhur "Düyməcik" nağılı əsasında Əməkdar mədəniyyət işçisi Vladimir Neverovun qələmə aldığı pyes Yeni il hədiyyəsi olaraq təqdim ediləcək.



Tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovski, xoreoqrafı Raulya Turkkan, rəssamları əməkdar mədəniyyət işçiləri Aleksandr Fyodorov və Olqa Abbasovadır. Tamaşa hər gün saat 12-də göstəriləcək.

### "Qar kraliçası" səhnəyə çıxırsa…

Dünya nəsri və dramaturgiyasında, eləcə də kino icad ediləndən bəri də bu sənətdə elə əsərlər var ki, onlar yalnız Yeni il bayramı ilə assosiasiya olunur.



Belə əsərlərdən biri də H.X.Andersenin "Qar kraliçası" nağılıdır. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı dekabrın 28-dən etibarən Elşad Rəhimzadənin səhnələşdirib quruluş verdiyi nağıl-tamaşanı hər gün 3 və ya 4 seans olmaqla (saat 12.00, 14.00, 16.00, 18.00) təqdim edəcək. Yeniyetmələrin çox sevdiyi triller janrının elementlərindən istifadə edilmiş tamaşa təkcə məktəbəqədər və kiçikyaşlı məktəblilər üçün deyil, həm də 11-14 yaşlı teatrsevərlər üçün maraqlı olacaq.

### "Ağıllı dovşan"la tanışlıq Mingəçevirdə olacaq

Mingəçevir Dövlət Dram Teatrı da Yeni il bayramı günlərində şəhərin kiçikyaşlı tamaşaçılarını və məktəbliləri darıxmağa qoymayacaq. Onları Yelena Sokolovanın rus xalq nağılı əsasında səhnələşdirdiyi və Ayla Osmanovanın dilimizə çevirib quruluş verdiyi "Ağıllı dovşan"la tanışlıq gözləyir. Qorxaq kimi tanınan Dovşanın cəsarətli olmaq istəyi onu yeni macəralarla üzbəüz qoyur və o, dostu Kirpi ilə birlikdə bu sınaqlardan ağılın gücü ilə çıxır. Premyerası dekabrın 17-də oynanılmış "Ağıllı dovşan" yanvarın 6-dək repertuarda qalacaq.

### Nağıllar arasında bir nağıl da var…

Dəcəl Maşa ilə səbirli Ayını kim tanımır ki? Onların başına gələnlərdən, daha doğrusu, Maşanın Ayının başına gətirdiyi oyunlardan kim xəbərsizdir ki? A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrından aldığımız xəbərə görə, sevimli qəhrəmanların bir sərgüzəşti də var ki, onu hələ görməmişik. Məşhur animasiya serialının motivləri əsasında Anar Məmmədovun səhnələşdirib quruluş verdiyi tamaşa "Maşa və Ayının qış nağılı" adlanır.




Tamaşada hadisələr Yeni il bayramı günlərində, Şaxta baba və Qar qızın iştirakı ilə cərəyan edir. Balacaların sevimli Maşası isə ekrandakından bir qədər fərqli olacaq. Tamaşanın əsas ideyası dostlara qayğı, təbiətə sevgi aşılamaq, səmimi və fədakar olmağa çağırışdır. "Maşa və Ayının qış nağılı" dekabrın 26-dan yanvarın 6-dək, hər gün 4 seansda (12.00, 14.00, 16.00, 18.00) nümayiş olunacaq.

Kukla teatrının nəzdindəki "Oyuq" teatr-studiyası da bayram tədbirlərindən kənarda qalmayıb. Studiya "Şaxta babaya məktub" xeyriyyə aksiyası təşkil edir.

Dekabrın 25-də paytaxtdakı uşaq evi və internat məktəblərində yaşayan 50-60 uşağın Şaxta babaya ünvanladığı məktubdakı istəyi gerçəyə çevriləcək. İstək məktubundakı oyuncaqdan geyimədək bütün əşyalar Şaxta baba tərəfindən onlara hədiyyə ediləcək. Amma bu da hələ son deyil. Həmin gün teatrda "Oyuq"çular "İki meşənin nağılı" tamaşasını kiçik yaşından hər cür çətinliklə üzləşən yaşıdları üçün oynayacaqlar. Səhnələşdirənləri Qurban Məsimov, Səidə Haqverdiyeva, quruluşçu rejissoru Günay Səttar, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Vüqar Camalzadədir.

### Bu toy bir ayrı toydur...

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdindəki Bakı Uşaq Teatrı maraqlı, adı da qeyri-adi olan bir tamaşa hazırlayıb. Teatr balaca tamaşaçıları "Şaxta babanın toyu" tamaşasına dəvət edir. Özü də səhnədəki qəribə toy Yeni il ərəfəsində, yəni dekabrın 29-30-da Gədəbəy rayonunda çalınacaq. Yanvarın 2-də saat 11-də və 13-də isə tamaşa Bakıda, teatrın öz binasında göstəriləcək. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist İntiqam Soltan, rəssamı Sevda Məmmədova, musiqi tərtibatçısı Rauf Hüseynli, rəqslərin quruluşçusu isə Könül Şahbazovadır.

### Qar qızı kim xilas edəcək?

Şəki Dövlət Dram Teatrı məktəblilərin qış tətili günləri üçün "Qar qız və dəniz quldurları" adlı maraqlı macəra tamaşası hazırlayıb. Dekabrın 29-dan yanvarın 7-dək nümayiş olunacaq tamaşa uşaqların sevimli qəhrəmanını müxtəlif sınaqlardan keçirəcək və sonda dostluğun, ədalətin qələbəsi ilə başa çatacaq.

### Çeburaşka Sumqayıtdadır

İllərdən bəri balacaların çox sevdiyi Çeburaşka adlı yarıgerçək-yarınağıl qəhrəman 2019-cu ili Sumqayıtda qarşılayacaq. Sumqayıt Dövlət Dram Teatrı builki Yeni il şənliyində uşaqları "Çeburaşkanın Yeni il sərgüzəştləri" tamaşasına baxmağa dəvət edir. Teatrın mətbuat xidmətindən aldığımız məlumata görə, tamaşa karnaval prinsipləri üzərində qurulub. Quruluşçu rejissoru Ayla Osmanova, rəssamı Nizami Dadaşov, rəqslərin quruluşçusu Ceyhun Dadaşovdur.

Çeburaşkanın və onun dostlarının başına Yeni ildə nələr gəldiyini bilmək üçün dekabrın 27-dən yanvarın 3-dək yolunuzu Sumqayıt teatrından salın.

* * *

Əziz valideynlər, bu yazını sizin üçün hazırladıq. Ona görə bəzi tamaşaların qısa məzmununu da açıqladıq ki, övladlarınızı teatra getməyə həvəsləndirəsiniz. Amma tamaşada nələri görəcəklərini əvvəlcədən onlara deməyin...

Yeni il tətili günlərində xoş və mədəni istirahət diləyi ilə

**Gülcahan MİRMƏMMƏD**

## Kitab rəfi

### Pablo Nerudanın "Ümidsizlik nəğməsi"




Azərbaycan Dövlət Tərcümə Mərkəzinin yeni nəşri – görkəmli Çili şairi, Nobel mükafatı laureatı Pablo Nerudanın "Ümidsizlik nəğməsi" adlı şeirlər kitabı işıq üzü görüb. Tərcümə Mərkəzindən bildirilib ki, XX əsr dünya poeziyasının korifeylərindən sayılan Nerudanın əsərlərini dilimizə tanınmış şair-tərcüməçi Salam Sarvan çevirib. Kitabın redaktoru Mahir Qarayevdir.

### Dünya bestselleri Azərbaycan dilində

Amerika yazıçısı Oq Mandino (1923-1996) dünyada "satışlar qurusu" kimi tanınan, kitabları bestseller olan müəllifdir. Onun kitabları 20-dən çox dildə 50 milyona yaxın tirajla çap olunub. Yazıçının ən məşhur "Dünyanın ən böyük satıcısı" kitabını artıq Azərbaycan dilində də oxumaq olar. Dünya bestsellerini dilimizə Sadiq Musa çevirib.

Kitab müəllifin fərdi inkişaf sahəsində qələmə aldığı ən təsirli əsərlərdən biridir. Bu mövzuda digər nəşrlərdən fərqli olaraq, Oq Mandino bu əsəri hekayə dili ilə yazıb, bütün hadisə və situasiyalar olduqca canlı, təsirli, öyrədici təsvir olunub. Əsərdə əsas diqqət bu gün kim olduğunuza deyil, sabah nəyə başlayacağınıza yönəldilib.

Ticarət karvanında dəvələrə qulluq edən gənc Hafid ustadı, tacir Patrosun ona verdiyi, min illərin uğur sirlərinin qələmə alındığı nadir perqamentlərdəki həyat fəlsəfəsi ilə dünyanın ən böyük satıcısına çevrilir. Bu həyatda hər kəsin qazanacağı uğur özünü, bacarıqlarını başqalarına necə təqdim edəcəyindən birbaşa asılıdır...

## TƏQVİM — 22-25 dekabr

### Azərbaycan

**22 dekabr 1898** – Rejissor, Əməkdar incəsənət xadimi Ağarza Səməndər oğlu Quliyev (1898 - 15.9.1976) Lənkəranda doğulub.
**22 dekabr 1906** – Xalq artisti, müğənni Əlövsət Şirəli oğlu Sadıqov (1906-1971) anadan olub.
**22 dekabr 1911** – Tanınmış jurnalist, pedaqoq, professor Nəsir İmanquliyev (1911-1998) anadan olub.
**22 dekabr 1920** – Yazıçı, ssenarist, kinorejissor Həsən Mehdi oğlu Seyidbəyli (1920 - 25.6.1980) anadan olub.
**22 dekabr 1937** – Tarixçi, etnoqraf, AMEA-nın müxbir üzvü Arif Akim oğlu Abbasov (1937-2005) Naxçıvanda doğulub.

**23 dekabr 1911** – Şərqşünas, şair, tərcüməçi Məmməd Mübariz Əli oğlu Əlizadə (1911-1994) anadan olub.
**23 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923-1993) anadan olub.
**23 dekabr 1945** – Əməkdar artist Sadiq Əliabbas oğlu İbrahimov (1945-2015) anadan olub.

**24 dekabr 1926** – Əməkdar artist, balaban və klarnet ifaçısı Bəhruz Mahmud oğlu Zeynalov (1926-1998) anadan olub.
**24 dekabr 1939** – Şair, yazıçı, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (1939-2015) Kəlbəcər rayonunun Laçın kəndində doğulub.

**25 dekabr 1906** – Kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (1906 - 7.11.1990) anadan olub.
**25 dekabr 1906** – Filologiya elmləri doktoru, professor Əli Abdulla oğlu Sultanlı (1906-1960) Naxçıvanda doğulub.
**25 dekabr 1909** – Teatr rejissoru, Xalq artisti Ələsgər Məmmədtağı oğlu Şərifov (1909-1982) Şamaxıda doğulub.
**25 dekabr 1910** – Tarixçi, Azərbaycan EA-nın müxbir üzvü Zülfəli İmaməli oğlu İbrahimov (1910-1972) anadan olub.
**25 dekabr 1935** – Xalq yazıçısı Yusif Səmədoğlu (Vəkilov; 1935 – 17.8.1998) anadan olub.
**25 dekabr 1941** – Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva (1941-1995) Şəmkirin Morul kəndində doğulub.

### Dünya

**22 dekabr 1858** – İtalyan bəstəkarı Cakomo Puççini (Giacomo Puccini; 1858 - 29.11.1924) anadan olub.
**23 dekabr 1858** – Rejissor, dramaturq, Moskva Bədaye Teatrının qurucularından Vladimir İvanoviç Nemiroviç-Dançenko (1858-1943) anadan olub.

**24 dekabr 1798** - Polyak şairi Adam Miskeviç (Adam Bernard Mickiewicz; 1798 - 26.11.1855) anadan olub.
**24 dekabr 1867** – Türk şairi, jurnalist Tofiq Fikrət (Mehmet Tevfik Fikret; 1867-1915) İstanbulda doğulub.
**24 dekabr 1906** – İngilis yazıçısı, detektiv əsərlər müəllifi Ceyms Hedli Çeyz (James Hadley Chase – Rene Brabazon Raymond; 1906-1985) anadan olub.

**25 dekabr 1813** – Alman şairi Fridrix Vilhelm Veber (Friedrich Wilhelm Weber; 1813-1894) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 22-25 dekabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 22 dekabr | C.Puççini - "Manon Lesko" (opera - premyera) | 19.00 |
| 23 dekabr | Ə. Bədəlbəyli - "Qız qalası" (balet) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | |
|---|---|
| 22-23 dekabr | Yeni il şənliyi (saat 12.00, 13.00, 15.00, 17.00) |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 22 dekabr | Ə.Səmədli - "Toya bir gün qalmış" | 19.00 |
| 23 dekabr | F.Qarayev, S.Bekket - "Qodonun intizarında" | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 22 dekabr | V.Neverov – "Nağılı tap-5" | 12.00 |
| | N.Qoqol – "Evlənmə" (premyera) | 19.00 |
| 23 dekabr | Y.Poddubnaya - "Kraliçanın sonuncu ehtirası" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 22 dekabr | R.Hovard - "Qrinç" | 12.00<br>14.00 |
| | Ə.Əmirli - "Hasarın o üzü" | 19.00 |
| 23 dekabr | P.Culliford - "Şirinlər" | 12.00<br>14.00 |
| | L.Nuren - "Mən gəldim, qızlar..." ("Müharibə") | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 22 dekabr | M.Seyidzadə - "Cırtdan" | 12.00<br>14.00 |
| | M.Seyidzadə - "Üç cəsur" (rus dilində) | 16.00 |
| 23 dekabr | Rus xalq nağılı - "Turp" | 12.00<br>14.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər prospekti 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 22 dekabr | A.Çexov - "Təklif" | 19.00 |
| 23 dekabr | R.Akutaqava - "Müəmmalı bir qətlin üç versiyası" | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 22 dekabr | N.Qəribova, C.Dadaşov - "Katarsis" | 18.00 |
| 23 dekabr | B.Xanızadə - "Fəlakət və İnsan" | 14.00 |
| | B.Əhmədli - "Ora-bura" | 18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 25 dekabr | Azərbaycan Dövlət Rəqs Ansamblının "Mənim Azərbaycanım" adlı konserti | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 22 dekabr | Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər Ağaverdi Paşayev; solist Cavid Hüseyn) | 19.00 |
| 24 dekabr | F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblı (bədii rəhbər Ağaverdi Paşayev) | 19.00 |
| 25 dekabr | Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər Rauf Abdullayev; solist Sergey Doqadin (violin, Rusiya) | 19.00 |

**Filarmoniyanın Kamera və Orqan Musiqisi Zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 25 dekabr | "Gənclərə dəstək" layihəsi çərçivəsində "Qış nağılı" adlı konsert | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 22-23 dekabr | Vokal musiqisindən ibarət konsert | 19.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı (R.Behbudov küç. 12)**

| | | |
|---|---|---|
| 22 dekabr | "Səma" rəqs kollektivinin konserti | 16.00 |
| 23 dekabr | "Doktor Aybolit" balet-tamaşası | 12.00 |

# Pekində Azərbaycan-Çin dostluq konserti

Pekində Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Azərbaycan-Çin dostluq konserti keçirilib.



Konsertdən əvvəl çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkələr olduğunu qeyd edərək, xalqlarımız arasında əlaqələrin tarixi İpək Yolu dövründən başladığını deyib. Diqqətə çatdırılıb ki, Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvi hələ XII əsrdə xalqlarımızın dostluğunu "Yeddi gözəl" poemasında vəsf etdiyi Çin gözəli obrazı ilə təsvir edib. Ölkələrimizin dostluq və əməkdaşlığının indiki mənzərəsi daha zəngin və rəngarəngdir. Baş nazirin müavini Azərbaycan-Çin humanitar əlaqələrinin genişləndirilməsində və müxtəlif mədəni layihələrin reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəal rolundan söz açıb.

Qədim İpək Yolunun ölkələrimiz arasında dostluq əlaqələrinin təməlini qoyduğunu qeyd edən Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xon zəngin mədəniyyətə malik xalqlarımızın uzaq məsafədə yaşamasına baxmayaraq, bu yol vasitəsilə bir-birini tanımağa başladığını söyləyib. O, dostluq konsertinin bu baxımdan əhəmiyyətini qeyd edib: "Musiqi bəşəriyyətin ümumi dilidir. Ümid edirəm ki, bu konsert Azərbaycanın qədim mədəniyyətinin sədasını bizə çatdıracaq, iki xalq arasındakı dostluq və sevgi körpüsünü daha da möhkəm edəcək".

Sonra səhnə Azərbaycan sənətçilərinin ixtiyarına verilib. Pekinin ən böyük konsert sarayı olan İfaçılıq Sənəti Milli Mərkəzində təşkil olunan konsertdə Fuad İbrahimovun dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və xalq artistləri Murad Hüseynov, Samir Cəfərov, Ənvər Sadıqov, Əməkdar artist Sahib Paşazadə, digər tanınmış ifaçılar çıxış ediblər. Proqramda Üzeyir Hacıbəyli ("Arazbarı", "Sevgili canan"), Fikrət Əmirov ("Sevil" operasından Balaşın ariyası, "Azərbaycan elləri", "Məhəbbət rəqsi"), Qara Qarayev ("İldırımlı yollarla" baletindən parça), Niyazi ("Arzu"), Cahangir Cahangirov ("Qarabağ", "Ay qız"), Aqşin Əlizadə ("Cəngi"), Tofiq Quliyev ("Bakı haqqında mahnı", "Qaytağı", film musiqilərindən poppuri), Həsən Rzayev ("Çahargah" rapsodiyası), Faiq Sücəddinov ("Qaytağı") və Müslüm Maqomayevin ("Azərbaycan") əsərləri, xalq mahnıları, habelə Avropa bəstəkarlarının musiqiləri səslənib. Tamaşaçılar Azərbaycan incəsənət ustalarının ifasını sürəkli alqışlarla qarşılayıblar. Çin ənənəvi musiqi parçalarının tarda, habelə aşıq ifasında təqdimatı isə salona toplaşanlar üçün əsl sürpriz olub.

# "Türk dünyasının mədəniyyət paytaxtı"nın yolu qırğız elinədir



Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi artıq altıncı ildir ki, reallaşır.





2012-ci ildə Astana (Qazaxıstan) ilə başlayan layihə növbəti illərdə Kazan (Tatarıstan), Əskişəhər (Türkiyə), Mərv (Türkmənistan), Şəki (Azərbaycan) və Türküstan (Qazaxıstan) şəhərlərini əhatə edib. 2018-ci ildə bu ünvana Türkiyənin Kastamonu şəhəri ev sahibliyi etdi.

Dekabrın 18-də Kastamonu şəhərində TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 36-cı dönəm toplantısında bu estafetin gələn il Qırğızıstanın Oş şəhərinin davam etdirəcəyi barədə qərar qəbul olundu. Həmin gün axşam Atatürk idman salonunda "Kastamonu 2018 – Türk dünyasının mədəniyyət paytaxtı" ilinin bağlanış mərasimi keçirildi.

Mərasimdə öncə "mədəniyyət paytaxtı" ili çərçivəsində görülən işləri əks etdirən film nümayiş olundu.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov çıxış edərək Şeyx Şaban Vəlinin vətəni olan Kastamonunun bu layihəyə layiqincə ev sahibliyi etməsinə, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi.

Sonra Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun, Kastamonu valisi Yaşar Qaradəniz və bələdiyyə başqanı Tahsin Babaş çıxış etdi.

Çıxışlarda TÜRKSOY-un 2018-ci ildəki fəaliyyəti, "Kastamonu 2018 – Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində görülən işlər, bölgənin Türkiyənin dövlətçilik tarixində və mədəni irsinin yaranmasında, inkişafında rolundan söz açıldı.

Diqqətə çatdırıldı ki, TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 36-cı iclasının qərarı ilə Qırğız Respublikasının Oş şəhəri 2019-cu ildə "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib, eləcə də 2019-cu il böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 və türkiyəli görkəmli el sənətkarı Aşıq Veysəlin 125-ci ildönümü münasibətilə xatirə ili elan olunub.

Çıxışlardan sonra Kastamonu bələdiyyə başqanı Tahsin Babaş "Türk dünyasının mədəniyyət paytaxtı"nın rəmzini bildirən açarı Oş şəhərinin bələdiyyə sədri Taalaybek Sarıbaşevə təqdim etdi. Xoş sözlər və səmimi təbriklərlə Oş şəhərinə uğurlar ifadə olundu.

Sonra mərasim zəngin bədii proqramla davam etdi. Ölkəmizi bədii proqramda təmsil edən F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının "Nağara" və "Qaytağı" rəqslərini ifası hərarətli alqışlarla qarşılandı.

**Mehparə SULTANOVA**
**Ankara**

# Həştərxanda "Qızıl açar" festivalı

## Sənət bayramında ölkəmiz də təmsil olunub

Rusiya Federasiyasının Həştərxan şəhərində gənc ifaçıların "Qızıl açar" ("Zolotoy klyuçik") adlı ənənəvi festivalı başa çatıb.

Xəzəryanı ölkələri əhatə edən sayca 25-ci, yubiley festivalının dekabrın 15-də keçirilən qala-konsertində Rusiya Federasiyası, Azərbaycan, Dağıstan və Qazaxıstandan iştirakçılar çıxış ediblər.

Festival Həştərxan Vilayəti Mədəniyyət və Turizm Nazirliyi, vilayətin "Lotos" teleradio şirkəti və Xalq mədəniyyəti elmi-metodik mərkəzinin təşkilatçılığı ilə gerçəkləşib. Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Qalina Zoteyeva festivalın hər il gənc istedadlara yaradıcılıq yolu açdığını vurğulayıb, bütün iştirakçıları təbrik edib.



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Nizami adına Mədəniyyət Mərkəzinin "Məkan" rəqs ansamblı konsertdə uğurla çıxış edib. Rəqs ansamblı laureat adını qazanıb və diplomla təltif edilib.

# Milli operamızın 110 illiyi Parisdə qeyd edilib

Fransada Azərbaycanın Dostları Assosiasiyası Parisin mərkəzində yerləşən tarixi San-Jermən-Lokserua kilsəsində Azərbaycan operasının ("Leyli və Məcnun", 1908) yaradılmasının 110 illiyinə həsr edilmiş konsert təşkil edib.



Assosiasiyadan bildiriblər ki, tədbirdə ölkəmizin Fransadakı səfiri Rəhman Mustafayev müsəlman Şərqində ilk opera olan Azərbaycan operasının yaranma tarixindən danışıb. O, həmçinin müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti haqqında ətraflı məlumat verib. Səfir Azərbaycanın Dostları Assosiasiyasının belə bir mühüm tarixi qeyd etməsini alqışladığını bildirib.

Assosiasiyanın prezidenti Jan-Fransua Mansel həyata keçirdikləri layihələr sayəsində mədəniyyətimizin Fransada təbliğindən söz açıb. O, müsəlman Şərqində ilk operanın Azərbaycanda yarandığını, milli operalarımızın zənginliyi, orijinallığı ilə seçildiyini bildirib.

Konsertdə Səidə Zülfüqarovanın (piano), Regina Rustamovanın (mezzo-soprano), Timur Abdikiyevin (bas), İrina Kopilovanın (soprano) ifasında Azərbaycanın opera musiqiləri maraqla qarşılanıb. Konsert zamanı unudulmaz bəstəkarlarımız Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası, Niyazinin "Arzu" melodiyası, Fikrət Əmirovun "Sevil" operasından Sevilin ariyası və digər musiqilərimiz səsləndirilib.

# "Azərbaycan xalqına təşəkkür borcumuz var"

Krımda nəşr olunan "Nenkecan" qadın jurnalının 2018-ci ildəki son sayı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunub.




Azərbaycan ilə Krımın əsrlərə söykənən əlaqələri var. XIX əsrin sonu – XX əsrin əvvəllərində iki xalqın görkəmli mütəfəkkir, yazar və ictimai xadimləri – Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov və İsmayıl Qaspralının əməl və fikir birliyi istiqamətində səyləri bu tarixin mühüm səhifəsini təşkil edir. 105 il əvvəl adı "Alemi-Nisvan" olan jurnal Şəfiqə Sultan Qaspralı və Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri Nəsib bəy Yusifbəylinin ideyası ilə işıq üzü görmüşdü. Jurnalın baş redaktoru da Şəfiqə xanım idi.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında azərbaycanlılar ilə eyni sırada Krım tatarları Cahangir bəy Kazımbəy, Cəfər bəy Rüstəmbəyov və onların xanımları da var idi. 1924-cü ildə Səməd Ağamalıoğlunun dəvəti ilə Bəkir Çobanzadə və digər Krım tatar gəncləri Azərbaycana təhsil almağa gəldilər. Azərbaycan onlara Vətən oldu. Bütün bunlar, eləcə də Azərbaycanda yaşayan Krım tatarlarının sonrakı taleləri, həyat hekayələri jurnalda yer alıb.

Nəşrin baş redaktoru Zera Bəkirova öz məqaləsində qeyd edir: "Bizim Azərbaycan Xalq Cümhuriyyətinə, bu qonaqpərvər xalqa böyük təşəkkür borcumuz var. Lakin Krım tatarları da bu ölkənin qarşısında borclu qalmadılar – Azərbaycanın elmində, sənətində, musiqisində, iqtisadiyyatında və digər sahələrində fəaliyyət göstərərək, müstəqilliyin yenidən qazanılmasında canlarını əsirgəmədilər".

"Nenkecan" jurnalının Cümhuriyyətin 100 illiyinə həsr edilmiş nömrəsinin Bakıda təqdimatı keçiriləcək.

# Mədəniyyət mərkəzi soydaşlarımızı bir araya gətirəcək

Londonda Azərbaycan-Böyük Britaniya Mədəniyyət Mərkəzi təsis edilib.



Mərasimdə bu ölkədəki səfirliyimizin əməkdaşları, azərbaycanlı tələbələr, türk iş adamları iştirak ediblər.

Mərkəzin sədr müavini Sevil Aslanova qurumun məqsəd və vəzifələri haqqında məlumat verib. Bildirib ki, mərkəz Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə yaradılıb. Bu, Böyük Britaniya üzrə ilk mədəniyyət mərkəzi sayılır. Əsas məqsəd bu ölkədə yaşayan azərbaycanlıları bir araya toplamaqdır. Mərkəzin başqa şəhərlərdə də filiallarının fəaliyyət göstərməsi planlaşdırılır. Mərkəzin bölmələrində Azərbaycan dili, rəsm, musiqi, milli rəqs, xalçaçılıq, toxuma, idman və 3-6 yaşlı uşaqlar üçün təlim kursları yaradılacaq. Azərbaycan radiosunun yaradılması da əsas məqsədlərdən biridir.

# Xərçəng dəstəkli telefon

## Salvador Dalinin əl işi hərracda milyon dollara satılıb



Məşhur sürrealist rəssam Salvador Dalinin hazırladığı xərçəng dəstəkli telefon hərraca çıxarılıb.

Əsər Böyük Britaniya muzeylərinə satış qiymətinə uyğunlaşma imkanı verildikdən sonra 853 min funta (təxminən 1,08 milyon dollar) Şotlandiya Milli Qalereyası tərəfindən alınıb. Sənət əsəri bundan sonra Edinburqdakı Müasir İncəsənət Qalereyasında nümayiş olunacaq.

Qeyd edək ki, 1930-cu ildə Salvador Dali öz rəhbəri Edvard Ceyms üçün 11 ədəd belə telefon düzəldib. Qalan 10 telefon hazırda ABŞ, Almaniya, Hollandiya, Portuqaliya və Avstraliyadakı muzeylərdə saxlanılır.

# Ad-sanına görə zəngin olanlar

## Rejissor Corc Lukas ABŞ-ın ən varlı məşhurudur

Kinorejissor və "Ulduz müharibələri" fantastik kinoepopeyasının yaradıcısı Corc Lukas "Forbes" jurnalının versiyasına görə, 2018-ci ildə ən varlı məşhur amerikalı olub. "Forbes" 74 yaşlı rejissorun varidatını 5,4 milyard dollar həcmində qiymətləndirib.



Nəşrin saytında dərc edilən siyahıda ikinci yeri var-dövləti 3,7 milyard dollara çatan kinorejissor Stiven Spilberq tutub, üçüncü yerdə isə teleaparıcı Opra Uinfri (2,8 milyard dollar) qərarlaşıb.

Reytinqin ilk onluğuna keçmiş basketbolçu Maykl Cordan (1,7 milyard dollar), reper Cey-Zi (900 milyon dollar), illüzionist Devid Kopperfild (875 milyon dollar), yazıçı Ceyms Patterson (800 milyon dollar) və başqaları daxildir.

2018-ci il reytinqinin ilk 10 pilləsində yer alan məşhurların ümumi varidatı 18,7 milyard dollar təşkil edir ki, bu da öncəki illə müqayisədə 4 faiz çoxdur.

Jurnal qeyd edir ki, bu siyahıya öz varidatı ilə məşhurlaşan deyil, məhz ad-sanına görə varlanan ABŞ vətəndaşları düşə bilər.

**SƏBİNƏ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5178
**Sifariş:** 3888
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.